HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 44 (835) ■ 9 noyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# Azərbaycan bayrağı - müstəqilliyimizin və milli qürurumuzun tərənnümçüsü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən, hər il 9 noyabr tarixi «Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü» kimi qeyd edilir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin ən real ifadəsidir. Məhz bu baxımdan, xalqımızın azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağımız milli qürurumuzdur.**



Azərbaycanlı milli düşüncəsində bayrağa xüsusi münasibət tarix boyu özünü qabarıq göstərmiş, bayraq xalqımızın milli mövcudluq nişanəsi sayılmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayraq xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir. 1918-ci il noyabrın 9-da Nazirlər Kabinetinin Bakıda keçirilən iclasında Fətəli xan Xoyski milli bayraq haqqında məruzə ilə çıxış etmişdir. Müzakirələrdən sonra yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq Dövlət bayrağı kimi qəbul olunmuşdur.

Azərbaycanın üçrəngli bayrağı dahi mütəfəkkir və ziyalı Əli bəy Hüseynzadənin hələ ötən əsrin əvvəllərində milli yaşam fəlsəfəsi kimi irəli sürdüyü «Türkləşmək, müasirləşmək, islamlaşmaq» devizinə əsaslanmışdır. Türkləşmək - milli ənənələrin dirçəlməsi, milli dilin, ədəbiyyatın, tarix və mədəniyyətin yüksəldilməsi, müasirləşmək - müasir elm və texnikanın nailiyyətlərinin öyrənilib nəticələrini milli elm və mədəniyyətin inkişafına istiqamətləndirmək, Qərb demokratiyası ənənələrindən istifadə etmək, islamlaşmaq isə - dini-mədəni və ümumbəşəri dəyərlərin inkişaf etdirilməsi deməkdir.

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımız on illərlə yalnız ürəklərdə yaşamışdır. Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qaldırılmışdır. Həmin sessiya Azərbaycan dövlətçiliyinin bərpası prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olmuşdur. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Dövlət bayrağı da milli suverenliyin simvolu kimi təsdiq olunmuş, bu sahədə çoxsaylı normativ aktlar qəbul edilmişdir. Azərbaycan Respublikasının 2004-cü il 8 iyun tarixli Qanunu ilə Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları müəyyənləşdirilmişdir.

Bu gün Azərbaycanda dövlət atributlarına hörmət və ehtiram yüksək səviyyədədir. Bu da ulu öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət rəmzlərinə olan münasibətindən qaynaqlanır, milli ideallara bağlılıq özünü həm də üçrəngli bayrağımıza münasibətdə qabarıq göstərir. Dövlətimizin başçısı müstəqilliyimizin simvolu olan dövlət atributlarının əhəmiyyətini artırmaq, onların məna və mahiyyətini gənc nəslə aşılamaq məqsədilə həyata keçirilən bir çox layihələrin ideya müəllifidir. Prezident İlham Əliyev 2007-ci il noyabrın 17-də «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində Dövlət Bayrağı Meydanının yaradılması haqqında» sərəncam imzalamış, həmin ilin dekabrında Bakının Bayıl qəsəbəsində Dövlət Bayrağı Meydanının təməli qoyulmuş, 2010-cu il sentyabrın 1-də isə Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimi keçirilmişdir. Ümumi ərazisi 60 hektar, yuxarı hissəsinin sahəsi 31 min kvadratmetr olan Bayraq Meydanında zəruri infrastruktur yaradılmışdır. İnşa olunmuş dayağın hündürlüyü 162 metrdir. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, çəkisi isə təqribən 350 kiloqramdır. Ginnes Dünya Rekordları Təşkilatı 2010-cu il mayın 29-da Azərbaycanın Dövlət bayrağı direyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq etmişdir. Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, Dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanmışdır. Burada Dövlət Bayrağı Muzeyi də yaradılmışdır.

Dövlət Bayrağı Meydanının açılış mərasimində çıxış edən ölkə Prezidenti İlham Əliyev üçrəngli bayrağımızın müstəqil Azərbaycanın simvolu, xalqımızın qürur mənbəyi olduğunu bildirərək demişdir: «Bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində Dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli Dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq».

Paytaxt Bakı şəhəri ilə yanaşı, ölkəmizin bir çox bölgələrində də yaradılan bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisidir. 2011-ci ilin mart ayından Naxçıvan şəhərində tikintisi aparılan Dövlət Bayrağı Meydanı bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Qısa müddətdə bu ərazidə abadlıq işləri aparılmış, bayraq gövdəsinin ətrafında səkkizguşəli, bir salondan ibarət bina tikilmiş, bayraq sütunu ucaldılmış və Dövlət bayrağı asılmışdır. 2014-cü ilin noyabr ayında Bayraq Meydanının açılış mərasimi keçirilmişdir.

Xalqımızın, bütün dünya azərbaycanlılarının azadlığının, şərəf və ləyaqətinin, milli birliyinin ifadəsi, hörmət və ehtiramının tək ünvanı olan Azərbaycan bayrağı millətimizin və dövlətimizin simvoludur. Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılır. Azərbaycan bayrağını müqəddəsləşdirən təkcə onun and yerimiz olması deyil, bayraq həm də dövlətimizin, bütövlükdə, xalqımızın gələcək yolunu müəyyənləşdirən bələdçidir. Milliliyi, dini inancımızı və müasirliyi təcəssüm etdirən bayrağımız azərbaycanlılara öz soykökünü xatırladır, üzərində dalğalanan torpağın qədimliyini göstərir. Bu gün ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir.

# Qarşılıqlı əməkdaşlıq məmnunluq doğurur

**Prezident İlham Əliyev noyabrın 7-də İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Paolo Centiloninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə İtaliyanın Azərbaycanın əsas ticarət tərəfdaşı olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji və digər sahələrdə yaxşı əlaqələrin mövcudluğunu qeyd edib.**



İtaliyaya son səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev səfər çərçivəsində iki ölkə arasında qəbul edilən strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin mühüm əhəmiyyət daşıdığını vurğulayıb, sənədin əməkdaşlıq, həmçinin qarşıya qoyulan məqsədlər baxımından çox önəmli olduğunu deyib. İqtisadi sahədə əlaqələrin də uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı italiyalı iş adamlarının ölkəmizdə biznes fəaliyyətinə maraq göstərdiyini məmnunluqla qeyd edərək, təşkil olunan biznes forumlarının biznes nümayəndələri arasında təmasların artırılması baxımından əhəmiyyətini xatırladıb.

İtaliyalı nazir Paolo Centiloni təmsil etdiyi ölkənin Baş naziri Matteo Renzinin salamlarını dövlətimizin başçısına çatdırıb. Azərbaycan ilə İtaliya arasında əlaqələrin inkişafının məmnunluq doğurduğunu vurğulayan diplomat ölkəmizə italiyalı iş adamlarından ibarət nümayəndə heyəti ilə səfər etdiyini diqqətə çatdırıb. Azərbaycanın qeyri-neft sektoru ilə bağlı götürdüyü öhdəliklərə sadiqliyini yüksək dəyərləndirdiklərini bildirən Paolo Centiloni iqtisadiyyatın şaxələndirilməsinin önəmini vurğulayıb. İtaliyanın ölkəmizin iştirakı ilə həyata keçirilən enerji layihələrində fəal iştirak etdiyini məmnunluqla qeyd edən səfir TANAP və TAP layihələrinin icrasına başlanmasının əlaqələrimizin inkişafı istiqamətində mühüm mərhələ olacağına əminliyini ifadə edib.

TANAP və TAP layihələrinin enerji təhlükəsizliyi və şaxələndirmə baxımından əhəmiyyətinə toxunan Prezident İlham Əliyev bu layihəyə artıq 7 ölkənin cəlb olunduğunu , gələcəkdə isə daha iki ölkənin qoşulacağını vurğulayıb. «Cənub Qaz Dəhlizi» layihəsinin icrasının gündəlikdə duran məsələ olduğunu qeyd edən dövlətimizin başçısı «Şahdəniz-2» layihəsi ilə bağlı işlərin 80 faizinin, TAP layihəsi üzrə işlərin isə təqribən 30 faizinin artıq icra olunduğunu xatırladıb, bu istiqamətdə bütün işlərin vaxtında həyata keçiriləcəyinə əminliyini ifadə edib.

Görüşdə iki ölkə arasında bir sıra sahələrdə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi və möhkəmləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.

Ölkəmizdə səfərdə olan İtaliyanın xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Paolo Centiloninin rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 8-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, «Əbədi məşəl» abidəsinin önünə əklil qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Dövlət başçısı xarici ölkə səfirlərini qəbul edib

Prezident İlham Əliyev noyabrın 5-də Albaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Genti Qazhelinin etimadnaməsini qəbul edib. Dövlətimizin başçısı iki ölkə arasında əməkdaşlığın inkişafı üçün yaxşı potensialın olduğunu vurğulayıb. Səfir Genti Qazheli diplomatik əlaqələrimizin müstəsna xarakterə malik olduğunu qeyd edib.

Həmin gün dövlət başçısı Eritreya Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Petros Tseqqai Asghedomun da etimadnaməsini qəbul edib.

## BU NÖMRƏMİZDƏ

VERGİLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB 2

ƏN YÜKSƏK SƏVİYYƏLƏRDƏ BİZNES-HÖKUMƏT DİALOQUNA NAİL OLMUŞUQ 3

ASAN İMZA SERTİFİKATLARININ SAYI ARTIR 4

ELEKTRON XİDMƏTLƏR ÜZRƏ İNZİBATİ REQLAMENTLƏRDƏ DƏYİŞİKLİK EDİLİB 5

# Vergilər Nazirliyində kollegiya iclası keçirilib

**Vergilər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamında verilən tapşırıqların icrası istiqamətində görülən işlərə və qarşıda duran vəzifələrə həsr edilmiş Kollegiya iclası keçirilib.**

İclasda çıxış edən vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədov bildirib ki, Azərbaycanda sahibkarlığın inkişafının dəstəklənməsi, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində son illər ərzində mühüm addımlar atılıb, görülmüş tədbirlər nəticəsində büdcəyə vergi daxilolmaları üzrə müəyyən edilmiş proqnoz tapşırıqlarına artıqlaması ilə əməl olunub.

Dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi nəticəsində ölkədə yaranmış yeni iqtisadi şəraitdə iqtisadiyyatın neft gəlirlərindən asılılığını minimuma endirmək məqsədilə aparılan iqtisadi islahatlar çərçivəsində cari ildə vergi orqanlarının fəaliyyəti təkmilləşdirilib, nazirliyin bütün strukturlarının fəaliyyətinin son nəticəyə - büdcə daxilolmalarının artırılmasına yönəldilməsi üçün bir sıra əhəmiyyətli tədbirlər görülməkdədir.

Kollegiya iclasında sərəncamdan irəli gələn məsələlərlə bağlı görüləcək işlər, eləcə də icra intizamına nəzarətin və strukturlararası koordinasiyanın səmərəliyinin artırılması ətrafında geniş müzakirələr aparılıb.

İclasda yekun nitqi ilə çıxış edən vergilər naziri Fazil Məmmədov vurğulayıb ki, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin aidiyyəti strukturları tərəfindən qanunsuz sahibkarlıq və mütəşəkkil qaydada vergidən yayınma halları ilə mübarizə qənaətbəxş səviyyədə deyil, operativ nəzarət strukturları isə bir sıra hallarda kiçik sahibkarlıq subyektləri barədə aktlar tərtib etməklə öz işlərini bitmiş hesab edirlər. Nazir qanunsuz sahibkarlıq, iri məbləğlərdə vergidən yayınma halları ilə mübarizə işində nöqsanlara yol vermiş vergi xidməti əməkdaşları barəsində, vergi orqanlarında xidmətinə xitam verilməsi də daxil olmaqla, ciddi cəza tədbirlərinin görülməsi ilə bağlı konkret tapşırıqlar verib. Daxili təhlükəsizlik Baş İdarəsinə və Nazirliyin Aparatına icra intizamına nəzarətin və strukturlararası koordinasiyanın səmərəliliyinin artırılması üçün təcili tədbirlər görülməsi tapşırılıb.

Kollegiyanın qərarı ilə vergi orqanları tərəfindən nəzarət funksiyalarının həyata keçirilməsi mexanizminin müasir tələblərə uyğun olaraq daha da təkmilləşdirilməsi, büdcə gəlirləri üzrə proqnoz tapşırıqlarının tam həcmdə yerinə yetirilməsi məqsədilə Vergilər Nazirliyində bəzi struktur və kadr dəyişiklikləri aparılıb, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində bu məsələlərlə birbaşa məşğul olacaq müvafiq struktur bölmə - İqtisadi sahədə mütəşəkkil cinayətkarlığa qarşı mübarizə idarəsinin tərkibində Qanunsuz sahibkarlıq fəaliyyətinə qarşı mübarizə şöbəsi yaradılıb.

## Proqnoz tapşırığı yerinə yetirilib

2016-cı ilin yanvar-oktyabr ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 5 milyard 707 milyon 128,0 min manat vəsait daxil olub, proqnoz tapşırığına 100,1 faiz əməl edilib.

Qeyri-neft-qaz sektoru üzrə büdcəyə 4 milyard 310 milyon 845,0 min manat vəsait daxil olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 247 milyon 477,8 min manat çoxdur.

Cari ilin 10 ayında respublika üzrə 105.605 vergi ödəyicisi qeydiyyata alınıb.

## «Elektron cinayət işi»nin tətbiqinə başlanılır

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli sərəncamından irəli gələn tapşırıqların icrası çərçivəsində Vergilər Nazirliyində «Elektron cinayət işi»nin tətbiqi ilə bağlı aparılan hazırlıq işləri başa çatıb.

Vergi hüquqpozmalarına və cinayətkarlığa qarşı mübarizə sahəsində təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılan istintaq işlərinin sürətinin və keyfiyyətinin artırılması, vahid elektron statistik uçot bazasının yaradılması, əlavə inzibatçılıq tədbirlərinin minimuma endirilməsi, iş vaxtına qənaət, insan resurslarından daha səmərəli istifadə olunması məqsədilə bu sahədə tətbiq edilən uğurlu beynəlxalq təcrübə öyrənilərək, nazirliyin Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) «Elektron cinayət işi» modulu hazırlanıb və istifadəyə verilib.

«Elektron cinayət işi» modulu - ibtidai istintaqı Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayətlər üzrə cinayət xarakterli faktları əks etdirən materialların departamentə göndərilməsi, burada aparılan ibtidai araşdırma zamanı qərar, vəsatət, məktub və digər sənədlərin elektron formada hazırlanması məqsədilə yaradılmış, özündə daha geniş və dəqiq məlumatları əks etdirən, operativ axtarış imkanlarına malik olan cinayət işlərinin vahid elektron sistemidir.

«Elektron cinayət işi» modulunun tətbiqi ilə bağlı ibtidai araşdırma zamanı qəbul oluna biləcək prosessual qərar, vəsatət və onları müşayiət edən məktubların, nazirlikdaxili məktubların (sorğuların), digər qurumlara göndəriləcək məktubların (sorğuların), ümumilikdə 100-dən artıq sənədin nümunəvi formaları hazırlanıb. Müstəntiq və təhqiqatçılar modulun müvafiq bölmələrində (xanalarında) tələb olunan məlumatları doldurarkən zəruri qeydlərini və əlavələrini də edə biləcəklər.

Modulun tətbiqinə 2016-cı ilin noyabr ayının 21-dən başlanılacaq. Bununla bağlı departamentin müstəntiq və təhqiqatçıları üçün treninqlər, habelə ictimaiyyət üçün təqdimat təşkil ediləcəkdir.

## Bələdiyyə nümayəndələri üçün təlim

Vergilər Nazirliyinin Tədris Mərkəzində 59 bələdiyyə nümayəndəsinin iştirakı ilə «Yerli (bələdiyyə) vergilərin və ödənişlərin hesablanması və ödənilməsi. Bələdiyyələrin Vergi İnformasiya Sistemində iş prosedurları» mövzusunda 2 günlük təlim keçilib.

Təlim zamanı yerli (bələdiyyə) vergilərin ödəyiciləri olan fiziki şəxslərin və sahibkarlıq fəaliyyəti subyektlərinin uçota alınması, yerli (bələdiyyə) vergi və ödənişlərin hesablanması, ödənilməsi və uçotu, habelə yerli (bələdiyyə) vergi və ödənişlərin elektron uçotu, eləcə də «Yerli vergi və ödənişlər haqqında Azərbaycan Respublikası Qanunu»nun müddəaları, bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərin mənfəət vergisinin, fiziki şəxslərin əmlak və torpaq vergilərinin, yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisinin hesablanması və ödənilməsi qaydaları barədə bələdiyyə nümayəndələrinə ətraflı məlumatlar verilib.

Təlimdə bələdiyyə Vergi İnformasiya Sisteminin (BVİS) altsistemləri və onların xüsusiyyətləri, BVİS-də yerli verginin ödəyicisi olan fiziki şəxslərin uçota alınması, qeydiyyata alınmış yerli (bələdiyyə) verginin ödəyicilərinə (bələdiyyə) vergilərin hesablanması və tədiyyə bildirişlərinin elektron qaydada hazırlanması və yerli (bələdiyyə) vergilər üzrə daxilolmaların BVİS-ə işlənməsi prosedurları bələdiyyə nümayəndələrinin diqqətinə çatdırılıb və bu mövzular ətrafında geniş müzakirələr aparılıb.

Qarşılıqlı əməkdaşlıq çərçivəsində təlimlərə təlimçi qismində cəlb edilmiş Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının əməkdaşları bələdiyyə qulluğu və bələdiyyə qulluqçularının etik davranış məsələləri, torpaq qanunvericiliyi, bələdiyyə torpaqlarının idarə edilməsi, istirahət vaxtı və işçilərin məzuniyyət hüquqları, habelə bələdiyyələrdə şəffaflığın artırılması, korrupsiya hüquqpozmalarının qarşısının alınması mövzuları üzrə təqdimatlarla çıxış ediblər.

## Böyük həcmli məlumatların təhlili və səmərəli istifadəsi

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı tərəfindən Niderland Krallığının Utrext şəhərində «Böyük həcmli məlumatların təhlili və səmərəli istifadəsi» mövzusunda keçirilən seminarda 31 ölkədən 57 nümayəndə iştirak etmişdir. Seminarın əsas məqsədi təşkilata üzv ölkələrin vergi administrasiyalarında istifadə olunan məlumat və analitik yanaşmanın tətbiqi ilə bağlı iştirakçılar arasında təcrübə və fikir mübadiləsinin aparılması, məlumat və analitik yanaşmanın tətbiqi sahəsində onların bilik və bacarıqlarının artırılması olmuşdur.

Seminar zamanı «Vergi administrasiyalarında məlumat və analitikanın tətbiqi» mövzusunda layihə haqqında tədbir iştirakçılarına məlumat verilmiş, həmçinin Niderland Krallığının nümayəndələri tərəfindən məlumatlar və analitika, risk modelləri, audit seçimi üçün risk dəyərləndirilməsi və digər mövzularda təqdimatlar olmuşdur. Eyni zamanda, seminarda veb-analitika, ƏDV risk modelləşdirilməsi, məlumatların idarə edilməsi, vergi boşluqlarının təhlili məlumatlarının vizuallaşdırılması mövzularında paralel qruplar halında Birləşmiş Krallığın, İsveçin, Niderland Krallığının təcrübələri haqqında məlumat verilmişdir.

Seminarda Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin Vergi potensialının dəyərləndirilməsi idarəsinin Nağd əməliyyatların təhlili şöbəsinin dövlət vergi müfəttişi Samir Qəhrəmanov da iştirak etmişdir.

## Azərbaycanın ilk ixrac missiyası Çinə səfər edəcək

İqtisadiyyat Nazirliyi tərəfindən noyabrın 9-13-də Çin Xalq Respublikasının Honqkonq Xüsusi İnzibati Ərazisinə və Quancou şəhərinə ilk ixrac missiyası təşkil olunacaq. Nazirliyin mətbuat xidmətindən bildirilib ki, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Azərbaycanda şərab istehsalı və ixracı ilə məşğul olan şirkətlərin nümayəndələrinin daxil olduğu ixrac missiyası «Honqkonq Şərab və Spirtli İçkilər Sərgisi»ndə və «Quancou Şərab Sərgisi»ndə iştirak edəcək. Səfər zamanı iş adamları arasında ixrac imkanlarının genişləndirilməsi ilə bağlı müzakirələr aparılacaq, potensial müştərilərlə görüşlər keçiriləcək. Səfər çərçivəsində iş adamları arasında əməkdaşlığa dair sənədlərin imzalanması gözlənilir.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi tərəfindən Honqkonq Xüsusi İnzibati Ərazisinə və Quancou şəhərinə təşkil olunan ixrac missiyalarında iştirak edən şirkətlərin seçilməsi üçün müsabiqə keçirilib və Azərbaycanda şərab istehsalı və ixracı ilə məşğul olan 12 şirkət ixrac missiyasında iştirak etmək hüququ qazanıb.

## Vergi ödəyiciləri ilə görüş

Ötən həftə Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət və uçot İdarəsinin inzibati binasında «Bəyannamələrdə aşkarlanan uyğunsuzluqlar» mövzusunda 113 vergi ödəyicisinin və onların nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdir.

Görüş zamanı təqdim edilən bəyannamələrdə yaranan uyğunsuzluqlar barədə ətraflı məlumat verilmiş, vergi ödəyicilərini maraqlandıran suallar əməkdaşlar tərəfindən cavablandırılmış, uyğunsuzluqların yaranma səbəbləri ilə bağlı müzakirələr aparılmışdır.

## Yoxlamaların dayandırılmasından bir il ötdü...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı fərmana əsasən, 2015-ci il noyabrın 1-dən sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 il müddətinə dayandırılıb. Bu dövr ərzində yalnız vergi yoxlamalarının, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına mühüm təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamaların aparılmasına icazə verilir. Yoxlamaların dayandırılmasında əsas məqsəd ölkədə sahibkarlıq fəaliyyətinə maneələrin aradan qaldırılması, qeyri-neft sektorunun inkişafının əsas güc mərkəzi olan kiçik və orta sahibkarlığın stimullaşdırılması, əlverişli biznes mühitinin və şəffaflığının təmin edilməsindən ibarətdir.**

### Ötən bir il ərzində həyata keçirilən dəyişikliklər

İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, dövlət başçısının fərmanının icrası ötən müddət ərzində sahibkarlıq sahəsində yoxlamaların tənzimlənməsinə və əlavə tədbirlərin həyata keçirilməsinə şərait yaradıb. 2016-cı ilin ötən 9 ayında cəmi 50 yoxlama keçirilib (vergi yoxlamaları istisna olmaqla), hansı ki, 2015-ci ildə bu cür yoxlamaların sayı 50 mindən çox olmuşdu. Yoxlamaların sayının azaldılması və inzibati prosedurların sadələşdirilməsi nəticəsində xidmətlərin yüksək keyfiyyətlə, şəffaf və operativ göstərilməsi vətəndaşların rahatlığını təmin etməklə bərabər, sahibkarların əvvəllər üzləşdikləri bir sıra problemlərin həllinə imkan yaradıb. Bundan başqa, son bir ildə lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılıb, lisenziyalar müddətsiz müəyyən edilib, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə aşağı endirilib.

### Sahibkarlara 3082 lisenziya verilib

Bir il ərzində iqtisadi fəaliyyət üçün tələb olunan xüsusi razılıq (lisenziya) növlərinin sayının azaldılması, lisenziyaların verilməsi prosedurlarının sadələşdirilməsi sahəsində də mühüm addımlar atılıb. İqtisadiyyat Nazirliyindən bildirildiyinə görə, 2015-ci il noyabrın 2-dən lisenziyaların «ASAN xidmət» mərkəzləri vasitəsilə verilməsinə başlanılıb və sahibkarlara 1584 yeni lisenziya verilib, 1498 lisenziya isə müddətsiz lisenziya ilə əvəz edilib. Ümumilikdə, bu dövrdə sahibkarlıq subyektlərinə 3082 lisenziya verilib. Bunların 2719-u Bakı şəhərinin, 363-ü isə regionların payına düşür. Lisenziyalar təhsil, əczaçılıq, özəl tibb, tikintisinə icazə tələb olunan bina və qurğuların layihələndirilməsi, tikinti-quraşdırma işləri, maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması, baytarlıq preparatlarının satışı, bitkiləri mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı, dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması, yanğından mühafizə, qaldırıcı qurğuların, metallurgiya avadanlıqlarının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması, təmiri və s. fəaliyyət sahələrinə verilib.

### Vergi yoxlamalarının da sayı azaldılıb

Fərmanda vergi yoxlamalarının aparılması istisna təşkil etsə də, Vergilər Nazirliyi öz səlahiyyətləri çərçivəsində kiçik sahibkarlıq subyektlərində səyyar vergi yoxlamaları və üç istiqamət (əmək müqavilələrinin bağlanılması, aksizli məhsulların satışı zamanı aksizlərin tətbiqinə nəzarət və dövriyyənin müəyyənləşdirilməsi üçün xronometraj metodu ilə müşahidələrin aparılması) istisna olmaqla, əksər operativ nəzarət tədbirlərini dayandırıb.

2016-cı ilin yanvar-sentyabr ayları ərzində 4441 səyyar vergi yoxlaması başa çatıb ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə yarıbayarı azdır. 2015-ci ilin yanvar-sentyabr ayları ərzində 58.574 obyekt üzrə vergi nəzarəti tədbiri keçirilərək 66.527 akt tərtib edildiyi halda, 2016-cı ilin eyni dövründə 12.735 obyekt üzrə vergi nəzarəti tədbiri keçirilərək 14.567 akt tərtib edilib. Bu rəqəm ötən ilin müvafiq dövrü ilə müqayisədə nəzarət tədbirləri nəticəsində tərtib edilmiş akt sayının 4,6 dəfə azalması deməkdir. Operativ vergi nəzarəti tədbirləri zamanı cari ilin yanvar-sentyabr aylarında tətbiq edilmiş inzibati cərimə və maliyyə sanksiyalarının məbləği keçən ilin ilk doqquz ayı ərzindəkinə nisbətən 8,5 dəfə azalaraq cəmi 2,3 milyon manat təşkil edib.

Vergi orqanları tərəfindən həyata keçirilən operativ nəzarət tədbirlərində əsas məqsəd heç də cərimə tətbiq etmək deyil, vergidən yayınma hallarının qarşısını əvvəlcədən alaraq, vergi mədəniyyətinin yüksəldilməsinə şərait yaratmaqdır. Bunun qarşılığında vergi ödəyiciləri də öz əməllərinə görə cavabdeh olmalı və qanunvericiliklə müəyyən edilmiş vəzifələr əsasında fəaliyyət göstərməlidir. Lakin bir sıra vergi ödəyiciləri onlar üçün yaradılmış şəraiti düzgün qiymətləndirə bilmədiklərinə görə, vergi qanunvericiliyinin pozulması hallarına hələ də rast gəlinir.

### Sahibkarlara əlavə seçim imkanı verilib, vergi yükü aşağı salınıb...

Sahibkarlıq subyektlərində yoxlamaların məhdudlaşdırılması və vergi nəzarəti tədbirlərinin sayının azaldılması sahibkarlara öz fəaliyyətlərini genişləndirmək üçün əlavə imkanlar verib. 2016-cı il yanvarın 1-dən qüvvəyə minən Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınmasına səbəb olub. Cari ildən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə vergitutma rejimində seçim hüququ verilib, daşınmaz əmlakın satışının sadələşdirilmiş vergiyə cəlb edilməsinə başlanılıb, müxtəlif vergi növləri üzrə vergi bazasının genişləndirilməsi davam etdirilib. Bununla yanaşı, vergi ödəyicilərinin optimal gəlirliliyini təmin etmək və investisiya mühitini daha da yaxşılaşdırmaq məqsədilə vergi yükünün azaldılması və inzibatçılığın yüngülləşdirilməsi istiqamətində mühüm addımlar atılıb, kiçik və orta sahibkarlığın stimullaşdırılması, rəqabət mühitinin təmin edilməsi sahəsində əlavə tədbirlər görülüb.

Görülən tədbirlər nəticəsində 2016-cı ilin üç rübü ərzində qeyri-neft sektoru üzrə vergi daxilolmaları 3,8 milyard manatdan artıq və ya proqnozdan 64,2 milyon manat çox olub.

### Bəzi sahibkarlar güzəştlərdən sui-istifadə etməyə çalışır

Ölkə sahibkarlarının böyük əksəriyyəti dövlət başçısının bu təşəbbüsünü yüksək qiymətləndirərək onlara yaradılmış əlverişli şəraitdən faydalanırlar. Yoxlamaların dayandırılmasından sonra sağlam düşüncəli, iqtisadi islahatları təşəbbüskarlıqla qarşılayan sahibkarlar öz gəlirlərindən vergiləri də vaxtında və tam həcmdə ödəyirlər.

Amma bu, bütün sahibkarlara şamil edilə bilməz. Bəzi iş adamları əsassız yoxlamaların dayandırılmasına, biznesin qeydiyyatının sadələşdirilməsinə və onların hüquq və mənafelərinin qorunmasına xidmət edən təsirli addımların atıldığına baxmayaraq, təəssüf ki, verilmiş bu əlverişli fürsətdən qanuna uyğun qaydada yararlanmaq əvəzinə ondan sui-istifadə edərək, müxtəlif yollarla vergidən yayınmağa çalışırlar. Onlar vergi öhdəliklərini könüllü surətdə yerinə yetirmək istəmir, vergidən yayınmağa cəhd göstərirlər. Bu hallar daha çox gəlir və xərclərin uçotunun aparılmaması, əmək müqavilələri hüquqi qüvvəyə minmədən vətəndaşların muzdlu işə cəlb edilməsi, nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması, satış məqsədilə mallar alınarkən rəsmiləşdirilmənin həyata keçirilməməsi zamanı baş verir.

Bir daha xatırladırıq ki, dövlət başçısının təşəbbüsü yalnız qanunsuz və lüzumsuz müdaxilələrin, yoxlamaların qarşısını almaq məqsədi daşıyır.

**Elbrus CƏFƏRLİ**

# Ən yüksək səviyyələrdə biznes-hökumət dialoquna nail olmuşuq



«Caspian European Club» («Caspian Business Club») sıralarında dünyanın 50 ölkəsinin 5000-dən artıq şirkət və təşkilatını birləşdirən, Xəzər-Qara dəniz və Baltik region dövlətlərinin ərazisində fəaliyyət göstərən (və ya fəaliyyət göstərmək niyyətində olan) ən nəhəng və dinamik inkişaf edən regional təşkilatdır. Müsahibimiz «Caspian European Club»un sədrinin birinci müavini, baş icraçı direktoru Telman Əliyevdir.

***- Telman müəllim, gələn il «Caspian European Club»un yaranmasının 15 ili tamam olur. Bu dövr ərzində qazanılmış hansı nailiyyətləri xüsusilə vurğulaya bilərsiniz?***

- 2002-ci ildə klub yaradılarkən qarşıya qoyulmuş hədəf indi öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu gün Azərbaycanda aparılan ciddi iqtisadi islahatlar artıq müəyyən nəticələr verməkdədir. Biz bunu ölkədə biznes qurmağa, cərəyan edən proseslərdə fəal iştirak etməyə, investisiya qoymağa, həmçinin burada yeni partnyorlar tapmağa can atan və öz nikbinliklərini ifadə edən xarici partnyorlarımızın timsalında hiss edirik. Dünyanın 50 ölkəsini təmsil edən tərəfdaşlarımız Azərbaycan brendlərinin dünya bazarlarına çıxışı üçün bizə öz xidmətlərini təklif edirlər.

Fəaliyyətimizə gəlincə, «Caspian Energy Marketing» şirkətlərinin iştirakı ilə ildə iki dəfə iri və orta şirkət rəhbərləri arasında dövlət-biznes münasibətlərində yaranan bürokratik maneələr və ayrı-ayrı hallarda korrupsiya tərkibli əməllərlə bağlı qapalı sorğu keçiririk. Məqsəd islahatların aparılmasına əngəl törədən mənfi məqamları üzə çıxarmaqdır.

***- Yola salmaqda olduğumuz ilin nəticələri barədə nələri qeyd edə bilərsiniz?***

- Bu gün qanunvericilik bazasında, xüsusilə də yeni islahatlar çərçivəsində biznesin müəyyən sahələrinin inkişafına mane olan boşluqları doldurmaqdan ötrü vergi, gömrük və əmək məcəllələrində bir sıra dəyişikliklərə ehtiyac var. Məhkəmə sistemində iqtisadi subyektlər arasında bir çox mübahisəli münaqişələrin həllinə ciddi təkan verəcək islahatlar həyata keçirmək artıq zərurətə çevrilib.

2016-cı ilin birinci yarısında ölkə başçısına təqdim etdiyimiz təkliflər paketində postneft dövründə biznesin dövlətə maksimal dəstəyindən ötrü tətbiqi zəruri olan məqamlar öz əksini tapıb. Təkliflərimizin böyük hissəsi qəbul olunub və ümid edirik ki, bunun sayəsində özəl biznes qısa müddət ərzində büdcənin doldurulmasında üzərinə düşən payı artıra biləcək və yeni iş yerlərinin açılması, rəqabətədavamlı məhsulların istehsalı üzrə yaxşı nəticələr nümayiş etdirəcək.

***- Klub tərəfindən təşkil olunan biznes forumlarının ölkənin biznes mühitinə hansı təsirləri olur?***

- Klub dövlət qurumlarının rəhbərlərinin - nazirlərin, dövlət komitələrinin, dövlət agentliklərinin və ya dövlət xidmətlərinin başçılarının iştirakı ilə ayda ən azı iki dəfə biznes forumu təşkil edir. KİV nümayəndələrinin də dəvət olunduğu həmin tədbirlər çərçivəsində şirkətlərlə problem və təkliflərin müzakirəsi aparılır. Fəaliyyətimizdə əsas diqqət yetirdiyimiz amil də məhz budur. Biz sahibkarları birləşdirən digər təşkilatlar kimi hökumət, parlament və Prezident Administrasiyası üçün çoxlu hesabatlar hazırlamırıq. Bir qayda olaraq, real sektorla, real bizneslə ünsiyyət qurmağa, onların problemlərini öyrənməyə və bu çətinlikləri birbaşa həmin fəaliyyət sahəsinə nəzarət edən struktur səviyyəsində həll etməyə çalışırıq.

«Caspian European Club» («Caspian Business Club») çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrində lider hesab olunan şirkət rəhbərlərinin başçılıq etdiyi sahə klubları fəaliyyət göstərir. Həmin qurumlarda sahibkarların problem və təkliflərini öyrənmək məqsədilə çoxlu tədbirlər təşkil olunur. Sonda bütün nəticələr cəmlənir, ekspertlər şurası tərəfindən tədqiq edilir və ildə iki dəfə vahid paket şəklində Azərbaycan Respublikasının Prezidentinə - «Caspian European Club»un («Caspian Business Club») rəhbəri cənab İlham Əliyevə təqdim olunur.

***- Bu ilin dekabr ayında klub 4-cü «Caspian Energy Forum Baku - 2016» beynəlxalq forumunu təşkil edəcək. Forumda hansı ölkələrin nümayəndələrinin iştirakı gözlənilir və əsas müzakirə mövzusu nə olacaq?***

- Forum neft və qeyri-neft sektorunun şirkətləri üçün platforma rolunu oynayır. Klubun üzv şirkətlərinin fəaliyyət göstərdikləri dünyanın 50 ölkəsindən 5 min şirkət öz nümayəndələrinin forumda iştirakını təmin edir. Təəssüf ki, biz iqtisadiyyatın müxtəlif sahələrini təmsil edən cəmi 300-dən 500-dək nümayəndəni qəbul edə bilirik.

Ümumilikdə forum Azərbaycanda aparılan islahatların ilkin nəticələrinə həsr olunub. Həm neft-qaz və enerji sektoru, həm də qeyri-neft sektorunu əhatə edən forum çərçivəsində iqtisadiyyatın müxtəlif sahələrinə nəzarət edən dövlət qurumlarının nümayəndələrini dinləmək imkanı yaradılacaq, şirkətlər işgüzar əlaqələr qurmaq fürsəti əldə edə biləcəklər. Bundan əlavə, klubun üzvü olan otel və turizm şirkətləri Azərbaycana gələn əcnəbi qonaqlarla işgüzar əlaqələr quracaq, maksimal endirimlər təqdim edəcəklər.

***- Klub hansı media layihələrinin həyata keçirilməsi ilə məşğuldur?***

- Klubumuzun dəstəyi ilə fəaliyyət göstərən «Caspian Energy International Media Group»la əməkdaşlıq çərçivəsində müxtəlif layihələr gerçəkləşdirilir. Məsələn, dünyanın 50-dən çox ölkəsində tanınan «Caspian Energy» jurnalımız nəşr olunur. Jurnalın hər nömrəsində müxtəlif dövlətlərin prezidentləri və baş nazirləri ilə müsahibələr dərc edilir. Burada dünya səviyyəli ekspertlər, müxtəlif dövlət qurumlarının rəhbərləri böyük məmnuniyyətlə müsahibələr verir, nəhəng beynəlxalq şirkətlərin başçıları öz fikirlərini bölüşürlər. Daha bir yeni layihəmiz «Caspian Energy News electron» qəzetidir. Qəzetin elektron versiyasının yerləşdirildiyi www.caspianenergy.net səhifəsinə daxil olaraq, Azərbaycanda və Xəzər-Qara dəniz regionunun digər ölkələrində həyata keçirilən islahatlar barədə ekspertlərin müsahibələri ilə tanış olmaq mümkündür. İş adamları üçün zəruri alət hesab edilən xeyli layihələr var. Bu siyahıya keçirilən bütün tədbirlərin foto-materiallarını əldə etmək imkanı yaradan «Caspian Energy Photo» agentliyi və təşkil etdiyimiz bütün tədbirlərimizin ətraflı video-hesabatlarının yer aldığı «Caspian Energy TV» də daxildir.

***- Kadrların hazırlanmasına nə dərəcədə diqqət yetirilir?***

- Klubumuzun dəstəyi ilə «Caspian Energy İnternational Media Group»ali təhsil müəssisələrinin tələbələri üçün ödənişsiz treninqlərin təşkili üzrə yeni proqram tətbiq edir. Treninqlər «Caspian Energy İnternational Media Group»un redaksiyasında və müxtəlif departamentlərdə bir neçə istiqamət - praktiki treninqlər, nəzəri ideyalar üzrə aparılır, təcrübə zamanı tələbələr jurnalın növbəti nömrəsinin hazırlanmasında, tədbirlərin təşkilində, bu və ya digər internet layihəsinin həyata keçirilməsində və s. proseslərdə iştirak edirlər.

Biz həm də hər rüb «Marketinq, brendmenecment və PR psixologiyası» mövzusunda klubumuzun üzv şirkətlərinin yüksək vəzifəli rəhbərləri üçün treninqlər təşkil edirik və bunun səmərəsi artıq hiss olunmaqdadır.

***- Biznesin dəstəklənməsi üçün işgüzar dairələrin nümayəndələri mükafatlandırılır...***

- Klubumuz üç mükafatın: «Caspian CEO Award», «Caspian Brand Award» və «Caspian Media Award» mükafatlarının təqdimetmə mərasimlərinin təşkilatçısıdır. Həmin tədbirlər bir neçə ay davam edən internet səsverməsinin nəticələrinə əsasən keçirilir. Mükafat uğrunda mübarizəyə qatılmaq üçün «Caspian CEO Award» (www.award.ceo) saytında şirkətlərin top-menecerlərinin fotoları, ad və vəzifələri, «Caspian Brand Award» (www.brandaward.org) saytında məhsul və xidmət brendləri, «Caspian Media Award» (www.award.az) saytında isə dövlət qurumlarının və diplomatik nümayəndələrin mətbuat xidmətlərinin rəhbərlərinin, özəl şirkətlərin marketinq və PR menecerlərinin, eləcə də KİV rəhbərlərinin fotoları yerləşdirilir. Səsvermədə yalnız klubumuzun üzvləri iştirak edə bilərlər. Mükafatın təqdimetmə mərasimi ildə iki dəfə - mart və sentyabr aylarında keçirilir.

***- Qeyd etdiniz ki, klub Azərbaycanda biznes-hökumət dialoqunun inkişafına yardım göstərir. Bəs ölkə hüdudlarından kənarda hansı işlər görülür?***

- Üzv şirkətlərin 70 faizindən çoxu Azərbaycanın hüdudlarından kənarda fəaliyyət göstərsə də, həmin şirkətlər gələcəkdə Xəzər regionu ölkələrində işləmək niyyətindədirlər. Bunu nəzərə alaraq, biz Gürcüstan, Qazaxıstan, Türkiyə, Çexiya, Macarıstan, Xorvatiya, Monteneqro, Rumıniya, Latviya, Polşa və Ukraynadakı ofislərimizdə işimizi bərpa etməyi və fəaliyyətimizi yeniləməyi planlaşdırırıq. Bu ölkələrin hər birində biznes marağı olan şirkətlərə müraciət edərək, onlarla əməkdaşlığı müzakirə etməyə hazır olduğumuzu bildirmişik. Hər ölkədə 3-dən 5-dək tərəfdaşımız ola bilər. Altı aydan bir bu tərəfdaşlardan biri rotasiya sistemi üzrə klubumuzun həmin ölkədə nümayəndəliyinin rəhbəri olur. Tərəfdaşlıq şirkətlərin müxtəlif səviyyələrdə biznesinin tanınmasına və irəliləməsinə yardımçı olacaq, həmçinin müştəri bazasını ciddi şəkildə genişləndirməyə və artırmağa imkan verəcək. Xarici ofislərin fəaliyyət istiqamətlərindən biri Azərbaycan brendlərini həmin ölkələrdə inkişaf etdirmək və populyarlaşdırmaq olacaq. Avropa və Amerika şirkətləri bu gün bizimlə əməkdaşlığa böyük maraq göstərirlər.

***- Klub biznesin xaricdə informasiya səviyyəsində irəliləyişinə necə yardımçı ola bilər?***

- Klubun bütün üzv şirkətlərinin adları»Caspian Energy» jurnalının hər buraxılışında xüsusi sorğu kataloqunda çap olunur. Bundan əlavə, «Caspian Energy INFO» informasiya portalımızda şirkət barədə geniş məlumat, loqotip və şirkət rəhbərinin fotosu, həmçinin təqdim edilən xidmət və məhsullar haqqında məlumat dərc olunur. Beləliklə, biz virtual əməkdaşlıq çərçivəsində münasibətləri tənzimləməkdə şirkətlər üçün əlverişli şərait yaradırıq.

Fürsətdən istifadə edərək, bizimlə sıx əməkdaşlıq edən və fəaliyyətimizə diqqətlə yanaşan dövlət qurumlarının nümayəndələrinə minnətdarlığımızı bildirmək istərdik. Ümid edirik ki, müvafiq əməkdaşlıq sistemini və biznes-hökumət dialoqunu ən yüksək səviyyədə qurmaq məqsədilə gələcəkdə bu təcrübəni klubun fəaliyyət göstərdiyi digər ölkələrdə də tətbiq edə biləcəyik.

***- Vergilər Nazirliyi ilə «Caspian European Club» arasında işgüzar əməkdaşlıq mövcuddur. Birgə təşkil edilən biznes-forumlarda hansı məsələlər müzakirə olunur?***

- Dövlət-biznes münasibətlərinin möhkəmlənməsində ciddi tərəfdaşa çevrilən «Caspian European Club» ilə Vergilər Nazirliyi arasında səmərəli əməkdaşlıq bir sıra mühüm məsələlərin müzakirəsi, irəli sürlüən təklif və rəylərin, iqtisadi təşəbbüskarlığın qəbul edilən qanunvericilikdə nəzərə alınması baxımından çox faydalıdır. İndiyədək təşkilatımızla nazirlik arasında bir neçə biznes-forum keçirilib.

Cari il iyunun 29-da vergilər nazirinin müavini İlkin Vəliyevin sədrliyi ilə klubumuzla birlikdə təşkil olunan biznes-forumda vergi sistemində aparılan islahatlar və vergi qanunvericiliyində həyata keçirilən dəyişikliklərlə bağlı iştirakçılara ətraflı məlumat verildi, ölkədə biznesin inkişafı və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, cəlbedici investisiya mühitinin yaradılmasında sahibkarların rolu geniş müzakirə edildi. Forum biznes nümayəndələrinə onları maraqlandıran suallara cavab almaq, problemləri həll etmək, yeni təkliflər irəli sürmək baxımından yaddaqalan oldu. Son vaxtlar vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində atılan addımları müsbət qarşılayan iş adamları həyata keçirilən islahatların həm ölkənin maliyyə imkanlarının genişləndirilməsi, həm də işgüzar mühitin yaxşılaşmasına xidmət etdiyini vurğuladılar.

***- Bu cür görüşlərin, həyata keçirilən birgə tədbirlərin əlaqələrin inkişafında nə kimi əhəmiyyəti var?***

- Vergilər Nazirliyinin «Caspian European Club» üzvlərinin təkliflərinə və təşəbbüslərinə göstərdiyi diqqət və qayğını yüksək qiymətləndiririk. Vergi xidməti işçilərinin peşə bayramı ərəfəsində keçirilən ənənəvi vergi forumlarını xüsusi qeyd etmək istərdim. Ötən illər ərzində Vergilər Nazirliyinin təşkil etdiyi forumlarda iş adamlarına, o cümlədən «Caspian European Club» üzvlərinə vergitutma və vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib, bu sahələrdə aktual mövzular üzrə müzakirələr aparılıb, konkret təkliflər irəli sürülüb.

> “Ötən illər ərzində Vergilər Nazirliyinin təşkil etdiyi forumlarda iş adamlarına, o cümlədən «Caspian European Club» üzvlərinə vergitutma və vergi qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib, bu sahələrdə aktual mövzular üzrə müzakirələr aparılıb, konkret təkliflər irəli sürülüb

Bundan başqa, klubumuzun tərkibində vergi və gömrük məsələləri ilə bağlı komitə fəaliyyət göstərir və burada ekspert qismində maliyyə-sənaye şirkətləri iştirak edirlər. Komitə vergi və gömrük məsələləri ilə bağlı monitorinqlər keçirir. Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsinin rəhbərliyinə həm qeydə alınan hər hansı neqativ hallar, həm də müsbət məqamlar barədə mütəmadi məlumat verilir. Tərəflər arasında qurulmuş sıx və açıq dialoq, geniş müzakirələr şəraitində əldə edilən ortaq yanaşmalar qanunvericiliyin təkmilləşdirilməsinə mühüm təsir göstərir, investisiya mühitinin yaxşılaşdırılmasına, azad biznesə dövlət dəstəyinin artmasına əlverişli şərait yaradır. Düşünürəm ki, Vergilər Nazirliyi ilə «Caspian European Club» arasında işgüzar əməkdaşlıq iqtisadi islahatların həyata keçirilməsi, özəl sektorun və sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, qanunvericiliyin təkmilləşdirilməsində mühüm rol oynayır.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Səkkiz il dalbadal birinci yer...

Vergilər Nazirliyinin rəsmi internet saytı (www.taxes.gov.az) 2002-ci ildən fəaliyyət göstərir. Azərbaycan dili ilə yanaşı, rus və ingilis dillərində də istifadəçilərin ixtiyarına verilən sayt daim aktiv saxlanılır, yeni bölmələr yaradılır, məlumatlar mütəmadi yenilənir ki, bu da ziyarətçilərin sayının ilbəil artmasına səbəb olur. 2005-ci ildə saytdan istifadə edənlərin sayı 259.644 olduğu halda, 2015-ci ildə bu göstərici 4.453.035 olub. Bu ilin 10 ayı ərzində istifadəçilər nazirliyin internet saytına 3.748.538 dəfə daxil olaraq, müxtəlif xidmətlərdən istifadə ediblər.

Vergilər Nazirliyinin rəsmi internet saytı indiyədək «İlin ən uğurlu internet layihəsi» nominasiyası üzrə «Humay», «İlin ən yaxşı dövlət saytı» nominasiyası üzrə iki dəfə «Netty», «Ən yaxşı dövlət və bələdiyyə saytları» nominasiyası üzrə iki dəfə «Milli Net», «Maliyyə» nominasiyası üzrə «İntellekt layihəsi» mükafatına layiq görülüb. Sayt «Mərkəzi dövlət qurumlarının onlayn şəffaflığı» monitorinqinin nəticələrinə görə Media İnstitutunun mükafatını, hüquqi maarifləndirmə sahəsindəki fəaliyyətinə görə Avrasiya Hüquqşünaslar Assosiasiyasının Fəxri diplomunu və «E-Hökumət» nominasiyası üzrə Beynəlxalq World Summit Award mükafatlarını almışdır.

Bundan əlavə, nazirliyin «Facebook» şəbəkəsindəki rəsmi səhifəsi də 2015-ci ildə «Ən yaxşı sosial şəbəkə səhifəsi» nominasiyası üzrə «MilliNet» internet mükafatı üzrə 1-ci yerə layiq görülüb. Elə bu günlərdə «Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi tərəfindən keçirilən tədbirdə dövlət qurumlarının informasiya açıqlığı üzrə növbəti monitorinqinin nəticələrinə görə, nazirliyin rəsmi internet saytı yenidən 1-ci yeri tutub və bununla da artıq 8 il dalbadal onlayn şəffaflıq üzrə liderliyini yenidən qoruyub saxlaya bilib.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin Məlumatlandırma işinin təşkili şöbəsinin baş dövlət vergi müfəttişi, baş vergi xidməti müşaviri Arif Ələkbərin sözlərinə görə, 2016-cı ilin 1 iyun-15 oktyabr tarixləri aralığında keçirilmiş monitorinq prosesində 70 mərkəzi icra orqanının və 68 yerli icra orqanının rəsmi saytlarının informasiya açıqlığı vəziyyəti araşdırılıb. Builki monitorinqin nəticələrinə əsasən, Vergilər Nazirliyinin internet resurslarının informasiya açıqlığı üzrə göstəricisi 79,1% olub: «Rəsmi sayt 2006-cı və 2009-cu illərdə iki dəfə yenidən qurulub, yeni dizayn və imkanlarla istifadəçilərin ixtiyarına verilib. 2012-ci ildə isə naviqasiya imkanlarının genişləndirilməsi və istifadəçilərin rahatlığını təmin etmək məqsədilə saytın «Ana səhifə»sinin görünüşündə dəyişikliklər edilib. Burada istifadəçilərə axtardıqlarını rahat tapa bilmələri üçün «Onlayn bələdçi» xidməti də istifadəyə verilib. 2016-cı ilin 10 ayı ərzində «Onlayn bələdçi» xidmətinə edilən 18.770 müraciət qısa müddətdə cavablandırılıb. Saytın «Sual-cavab» bölməsinə vergi qanunvericiliyi və inzibatçılığı barədə suallar ünvanlayıb qısa müddətdə cavab almaq mümkündür. Qısaca desək, istər naviqasiya rahatlığı, istərsə də tərtibatının daim yenilənməsi baxımından, saytımız həmişə öndə olub. Saytın hər il müxtəlif yeniliklərlə zənginləşdirilməsi istifadəçilərin işini də asanlaşdırır».

Qeyd edilib ki, saytdakı elektron xidmətlərdən istifadənin asanlaşdırılması və əhalinin bütün təbəqələri üçün əlçatan olması məqsədilə «İOS» və «Android» sistemli smartfon tipli avadanlıqlar üçün xüsusi tətbiqetmələr hazırlanaraq istifadəyə verilib. Bu il ərzində «Sadələşdirilmiş verginin ödəyiciləri üçün praktiki vəsait», «Vergiləri necə ödəyək?», «Biznesə necə başlamalı?», «Vergi orqanlarına müraciət», «Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslər və bina tikintisi fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri üçün hesablayıcı-kalkulyator» xidmətləri istifadəyə verilib: «İstifadəyə verilmə ərəfəsində olan bölmələrimiz də var. Bunlar vətəndaşlardan, eləcə də vergi ödəyicilərindən daxil olan müraciətlər əsasında onların marağına səbəb ola biləcək mövzularda qısa video-təlimatların, «Sahibkarın vergi bələdçisi» bölməsinin fiziki və hüquqi şəxslər üçün ayrılıqda alt bölmələrinin hazırlanması, vergi ödəyicilərinin öz vergi borcları barədə məlumatlarla internet saytı vasitəsilə məlumatlanma imkanının yaradılması, «Sual-cavab» bölməsinin «Ən çox verilən suallar» alt bölməsinin fəaliyyət növləri üzrə müvafiq kateqoriyalara bölünməsi, saytdakı bir çox məlumatların yenilənməsinin AVİS-ə inteqrasiya olunmaqla avtomatik üsula keçidi ilə bağlı müvafiq texniki işlərin görülməsidir. Sadalanan xidmətlər yaxın vaxtlarda saytımızın istifadəçilərinin ixtiyarına veriləcək».




Nazirliyin göstərdiyi xidmətlərin istifadəçilər tərəfindən necə qarşılandığını öyrənmək üçün saytda 2007-ci ildən sorğular keçirilir. Sorğuların nəticələrinə nəzər saldıqda məlum olur ki, istifadəçilər yenilikləri çox yüksək qiymətləndirirlər. Rəsmi saytda istifadəçilər üçün «Onlayn müraciət» imkanı da yaradılıb. Bu bölmə vasitəsilə vergi məsələləri ilə bağlı təklif, ərizə və şikayətlə bağlı müraciət etmək mümkündür. Saytda «Vergilər nazirinə onlayn müraciət», «Vergi orqanı əməkdaşının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi», «Vergi orqanı əməkdaşının qeyri-etik davranışı barədə məlumatın onlayn verilməsi», «Vergi Apelyasiya Şurasına müraciətin onlayn təqdim edilməsi» xidmətləri də göstərilir. Bütün bu xidmətlərin istifadəyə verilməsi vergi ödəyicilərinin, eləcə də bütün vətəndaşların Vergilər Nazirliyi ilə daha sıx və dost münasibət qurmasına istiqamətlənib.

Sayt tərtib edilərkən gələcəyin vergi ödəyiciləri - balaca dostlar da nəzərə alınıb. «Vergilər uşaqlar üçün» bölməsi gənc nəslin vergilərə dair biliklərə yiyələnməsinə, cəmiyyətdə vergi mədəniyyətinin formalaşmasına yardımçı olur...

**Aytən NƏBİYEVA**



## Vergi ödəyicisinin sualı var...

Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Dividenddən vergi tutulması

***Qeyri-rezident hüquqi şəxs tərəfindən Azərbaycan Respublikasının rezidenti olan fiziki şəxsə ödənilən dividend Azərbaycanda vergiyə cəlb edilirmi?***

Vergi Məcəlləsinin (VM) 97.1-ci maddəsinə görə, rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir. Dividend fiziki şəxslərin qeyri-sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlərinə aid edilir (VM, maddə 99.3.2).

Fiziki şəxslərin qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirinin 30.000 manatadək olan hissəsindən 14 faiz, 30.000 manatdan çox olduqda isə 4200 manat əlavə edilsin 30.000 manatdan çox olan məbləğin 25 faiz dərəcəsi ilə vergi tutulur (VM, maddə 101.2).

Rezidentin Azərbaycan Respublikasının hüdudlarından kənarda Azərbaycan mənbəyindən olmayan gəlirindən ödənilmiş gəlir vergisinin və ya mənfəət vergisinin məbləğləri Azərbaycanda vergi ödənilərkən nəzərə alınır (VM, maddə 127.1).

VM-in 127.1-ci maddəsinə uyğun olaraq, nəzərə alınan məbləğ Azərbaycan Respublikasında həmin gəlirdən və ya mənfəətdən müəyyən edilmiş dərəcələrlə tutulan verginin məbləğindən çox olmamalıdır (VM, maddə 127.2).

Azərbaycan Respublikasının hüdudlarından kənarda gəlir əldə edən rezident fiziki şəxslər bu Məcəllənin 149.2-ci maddəsində göstərilən müddətlərdə vergi orqanlarına bəyannamə verirlər (VM, maddə 149.1.4).

**Qeyd olunanlara əsasən:** Qeyri-rezident hüquqi şəxs tərəfindən Azərbaycan Respublikasının rezidenti olan fiziki şəxsə ödənilən dividend VM-in 101.2-ci maddəsi ilə müəyyən edilmiş dərəcələrlə Azərbaycanda gəlir vergisinə cəlb edilir. Bu zaman rezident fiziki şəxs tərəfindən hesablanmış gəlir vergisi məbləğindən həmin dividenddən tutulmuş verginin məbləği çıxılmaqla qalan məbləğ dövlət büdcəsinə ödənilir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Ötən ilin yanvar-sentyabr ayları ilə müqayisədə qida məhsullarının istehsalında **4,3%** artım qeydə alınıb.
- 2016-cı ilin doqquz ayında Azərbaycanda kompüter və elektron məhsullarının, elektrik avadanlıqlarının istehsalı sahələrində **121,3 milyon** manatlıq məhsul istehsal olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə kompüter və elektron məhsullarının istehsalı **14,9%**, elektrik avadanlıqlarının istehsalı isə **2,6** dəfə artıb.
- Cari ilin oktyabr ayı ərzində İcbari Sığorta Bürosunun informasiya sistemində avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə **79 min 683** müqavilə qeydiyyata alınıb.
- Ötən bir il ərzində İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzləri vasitəsilə sahibkarlara **1584** yeni lisenziya verilib, **1498** lisenziya müddətsiz lisenziya ilə əvəz edilib.
- Cari ilin oktyabr ayı ərzində **2 milyon 493 min 679** ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarına çıxarılıb.

## kit r fli SMS xidm tind n istifad qaydalar

İkitərəfli SMS xidmətindən «Azercell», «Bakcell» və «Narmobile» mobil operatorlarının abonenti istifadə edə bilər.

Xidmətdən istifadə etmək üçün mobil telefonda *195* istifadəçi kodu*şifrə# yığılır və «YES» (məsələn: *195*00000541*121756#YES) düyməsi sıxılmaqla nömrə qeydiyyatdan keçirilməlidir.

Xidmətə abunə olmaq üçün qeydiyyatdan keçirilmiş mobil telefon nömrəsindən START yazıb 8195 nömrəsinə SMS göndərilməlidir. Bu zaman Sizə 21 halda müvafiq məzmunlu SMS göndəriləcək.

Nömrə qeydiyyatdan keçirildikdən sonra xidmətə abunə olmadan 8195 nömrəsinə:

1 yazıb göndərməklə - dövlət büdcəsinə olan vergi borcu barədə

2 yazıb göndərməklə - təqdim edilməli bəyannamələr barədə

3 yazıb göndərməklə - fəaliyyətin aktiv və ya dayandırılmış olması barədə

4 yazıb göndərməklə - e-qutuda oxunmamış məktubların olub-olmaması barədə

5 yazıb göndərməklə - qeydiyyatda olan təsərrüfat subyektləri barədə məlumat ala bilərsiniz

8195 nömrəsinə göndərilmiş hər sorğuya görə nömrənin balansından 10 qəpik xidmət haqqı tutulur. Abunə olmuş vergi ödəyicilərinin nömrəsinin balansından ayda 1 manat 18 qəpik abunə haqqı tutulur.

# Müəssisələrin əmlak vergisi

Müəssisənin əmlak vergisi müəssisənin balansında olan əsas vəsaitlərə görə hesablanıb ödənilən vergidir. Qanunvericiliyə əsasən, vergitutma obyekti olan rezident müəssisələr və Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr əmlak vergisinin ödəyiciləridir. Əmlak vergisi üzrə müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəri, Azərbaycanda özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr üçün yalnız daimi nümayəndəliklə bağlı olan əsas vəsaitlərin orta illik dəyəri vergitutma obyekti sayılır. Müəssisələr əsas vəsaitlərin orta illik qalıq dəyərindən 1% dərəcəsi ilə əmlak vergisi ödəyirlər.

***Əmlak vergisi üzrə güzəşt və azadolmalar***

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin şərhinə əsasən, bu sahədə də müəyyən vergi güzəştləri və azadolmalar var. Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünüidarəetmə orqanları, Mərkəzi Bank və onun qurumları, dövlət fondları və əlillərin, sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddırlar. Vergitutma məqsədləri üçün müəssisənin əmlakının dəyəri ekologiya, yanğından mühafizə və ya mülki-müdafiə üçün istifadə edilən obyektlərin, məhsulötürücü kəmərlərin, dəmir və avtomobil yollarının, rabitə və enerjiötürücü xətlərin, meliorasiya və suvarma sistemi obyektlərinin, yol vergisinə cəlb edilən avtonəqliyyat vasitələrinin, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin yalnız bu sahələrin təyinatı üzrə istifadə etdiyi obyektlərinin dəyərində azaldılır.

Azərbaycan Respublikası Prezidentinin qərarına əsasən yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi və fiziki şəxslər həmin parkda qeydiyyata alındıqları hesabat ilindən başlayaraq, 7 il müddətinə bu parkdakı əmlaklarına, eləcə də sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru həmin parkın ərazisində yerləşən əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddırlar. Bundan başqa, kənd təsərrüfatı məhsullarının istehasalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslər 2019-cu ilin yanvar ayının 1-dək bu fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar.

> Dövlət hakimiyyəti orqanları, büdcə təşkilatları və yerli özünüidarəetmə orqanları, Mərkəzi Bank və onun qurumları, dövlət fondları və əlillərin, sağlamlıq imkanları məhdud uşaqların ictimai təşkilatları əmlak vergisini ödəməkdən azaddırlar

***Əmlak vergisinin hesablanması***

Müəssisənin əmlakı qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda, əmlak vergisi bazar qiyməti nəzərə alınmaqla hesablanır. Bu halda, həmin əmlaka əmlakın orta illik qalıq dəyərindən əmlak vergisinin hesablanması qaydası tətbiq edilmir.

Müəssisənin əmlak vergisi üçün vergi dövrü təqvim ili sayılır. Müəssisə əmlak vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verir. Müəssisələrin əmlak vergisi dövlət büdcəsinə ödənilir. Vergitutma məqsədləri üçün müəssisənin əmlakının orta illik qalıq dəyəri götürülür. Müəssisə hesabat ili ərzində yaradıldıqda və ya əmlak vergisi ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu tarixə və ilin sonuna qalıq dəyəri toplanaraq 24-ə bölünür və müəssisənin yaradıldığı və ya əmlak vergisi ödəyicisi olduğu aydan sonra ilin sonuna qədər olan ayların sayına vurulur. Müəssisə hesabat ili ərzində ləğv edildikdə və ya sadələşdirilmiş verginin ödəyicisi olduqda, onun əmlakının (avtonəqliyyat vasitələri istisna olmaqla) ilin əvvəlinə və ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən müəssisənin ləğv edildiyi və ya sadələşdirilmiş verginin ödəyicisi olduğu aya qədər olan ayların sayına vurulur.

İqtisadçı ekspert Rəşad Əliyevin sözlərinə görə, Azərbaycanda fiziki şəxslərin əmlak vergisi üzrə vergi dərəcələri və vergiqoyma bir çox ölkələrdən fərqli olaraq daha əlverişlidir: «Əmlak vergisinin tətbiqində ölkədə aparılan iqtisadi islahatların ümumi istiqamətləri öz əksini tapıb. Məsələn, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi və fiziki şəxslərin fəaliyyət prosesində istifadə etdikləri əsas vəsaitlərin 2019-cu ilə kimi əmlak vergisinin ödənilməsindən azad olunması kənd təsərrüfatı sektorunun inkişafına xidmət edir, bu sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin vergi yükünü və xərclərini azaldır».

**F.İKRAMQIZI**

# Qeyri-neft sənayesinin inkişafı stimullaşdırılır

Azərbaycanda yaradılan sənaye texnoparklarına sərmayə qoymaq istəyən investorlar arasında Rusiya şirkətlərinin fəallığı son dövrlər daha çox hiss olunmaqdadır. İntensiv xarakter alan Rusiya-Azərbaycan işgüzar forumlarında ən çox diqqət çəkən məsələlərdən biri məhz sənayenin müxtəlif sahələri üzrə birgə layihələrin həyata keçirilməsidir.

Bu sahədə Rusiyanın regionları, xüsusilə Sankt-Peterburq hökuməti öz səylərini daha çox artırıb. Bakıda keçirilən Azərbaycan-Rusiya Regionlararası Forumunda Rusiya Federasiyasının iqtisadi inkişaf nazirinin müavini Aleksandr Sıbulski ölkələr arasında yeni sənaye layihələrinin həyata keçiriləcəyini bildirib. Qeyd olunub ki, Azərbaycanda sənaye texnologiyaları parkları ilə bağlı ən yaxşı model yaradılıb və ruslar bu sahədə əməkdaşlıqda maraqlıdırlar.

Rusiyalı sənayeçilər Sumqayıt Texnologiyalar Parkı ilə əməkdaşlığa xüsusi önəm verirlər. Bu günlərdə Sumqayıtda olan Sankt-Peterburq şəhərinin nümayəndələri Azərbaycanda istehsal olunan sənaye məhsullarını əldə etmək niyyətlərini bildiriblər. Sankt-Peterburq hökumətinin sənaye siyasəti və innovasiyalar üzrə komitəsinin sədri Maksim Meykin bildirib ki, Rusiyada texnoparklara müxtəlif dövlət dəstəyi və vergi-gömrük güzəştləri mövcud olsa da, onlar vergidən tam azad edilməyiblər. Rusiyanın iri şəhərlərinin müstəqil hökumətləri olduğundan, həmin regionlarda sənayenin idarə edilməsi də fərqli xarakter daşıyır və sənaye texnoparklarında müxtəlif şəhərlər üzrə stimullaşdırıcı tədbirlər görülür. Məsələn, Sankt-Peterburq hökumətində sənaye texnoparkları vergilərdən azad olunmayıb, amma sənaye sahəsinin profilindən asılı olaraq, texnoparklara müəyyən vergi güzəştləri tətbiq edilir: bəzi sənaye texnoparklarında 4%, bəzilərində 2,5%, digərlərində 7%-lə vergi tutulur. Ümumilikdə isə bu siyasət texnoparkların rezidentlərini stimullaşdırmaq üçün əsas vasitələrdən hesab olunur. Bundan başqa, texnoparklara hökumət tərəfindən aşağı faizlə uzun və qısamüddətli kreditlər, eləcə də su, elektrik enerjisi, rabitə xidmətləri üzrə subsidiyalar verilir.

Peterburqlu investorlar bildiriblər ki, Azərbaycanın Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, tətbiq olunan güzəştli vergi rejimi bu sahəyə marağı artırıb və qarşıdakı 5 il ərzində Azərbaycanın sənaye texnologiyaları parklarında qeyri-rezident kimi təmsil olunması nəzərdə tutulur. Sankt-Peterburq sənayeçiləri Azərbaycan məhsullarının öz bazarlarına çıxarılması perspektivlərini də nəzərdən keçirirlər.

İqtisadiyyat Nazirliyinin sənaye şöbəsinin müdiri Səməd Bəşirli bildirib ki, «Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı»nda əsas yer tutan məsələlərdən biri xarici investorların ölkəmizin sənaye sahələrinə cəlb olunması üçün əlverişli biznes və investisiya mühitinin təmin edilməsi, təşviqedici və stimullaşdırıcı addımların atılmasıdır. Bu siyasətə uyğun olaraq, 2015-ci ilin əvvəllərindən xarici ölkələrin, o cümlədən Rusiyanın iri sənaye korporasiya və şirkətlərinin rəhbərləri ilə sərmayə qoyuluşu imkanları və perspektiv əməkdaşlıq barədə səmərəli danışıqlar aparılıb. Hazırda Sankt-Peterburqun sənaye texnoparkları və biznes-inkubatorları üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri ilə danışıqlar davam etdirilir. Birgə əməkdaşlığa əsasən, gələcəkdə Gəncə və Qaradağda müasir sənaye parkı və məhəllələrinin yaradılması da planlaşdırılır. Azərbaycanlı sənayeçilər isə azad iqtisadi zonaların yaradılmasında Rusiyanın təcrübəsini öyrənmək niyyətindədirlər. Ölkəmizin iş adamları «Lotos» iqtisadi zonasında olub, buradakı sənaye, energetika, nəqliyyat, xidmət, humanitar və s. sahələrdəki iş fəaliyyətini izləyiblər.

İqtisadiyyat Nazirliyindən bildirilib ki, sənaye sahəsində fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyinin göstərilməsi, bu sahəyə yerli və xarici investisiyaların cəlb edilməsi və infrastruktur təminatının yaxşılaşdırılması istiqamətlərində həyata keçirilən tədbirlər istehsalın artmasına səbəb olub. Azərbaycanda sənaye müəssisələri və fərdi sahibkarlar tərəfindən 2016-cı ilin yanvar-sentyabr aylarında 23 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz çox sənaye məhsulu istehsal edilib. Hüquqi şəxslərin, xüsusilə texnoparklarda fəaliyyət göstərən rezidentlərin istehsal imkanlarını nəzərə alsaq, sənayenin payı 25 milyard manatı ötüb. Hazırda ümumi daxili məhsulun təxminən 38-40%-ni sənaye məhsullarının istehsalı təşkil edir. Bu ilin 9 ayı ərzində sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 3,6 faiz artıb, neft sektorunda isə 0,2 faiz azalıb.

Sənaye sahəsinə investisiya qoyuluşları da ötən ilin müvafiq dövrü ilə müqayisədə təxminən 5% artıb. İqtisadiyyata kapital qoyuluşlarının həcmi 10 milyard manatdan artıq olub və ümumi investisiya qoyuluşlarının 45%-i sənaye sahəsinə yönəldilib.

**Elbrus CƏFƏRLİ**

# ASAN imza sertifikatlarının sayı artır

2013- cü ilin may ayından istifadəyə verilmiş ASAN imza elektron xidmətlərə daxil olan və rəqəmsal imzalar edən zaman kimliyimizi təsdiqləyən mobil identifikasiyadır. Vergilər Nazirliyi və mobil operator tərəfindən verilən bu imza ilə bütün e-xidmətlərdən istifadə etmək mümkündür. ASAN imza gücləndirilmiş elektron imza vasitəsi olduğundan, onunla imzalanan sənədlər ölkə qanunvericiliyinə əsasən əl ilə edilmiş imzaya bərabər sayılır.




Asan imza sertifikatlarının «Autentifikasiya», «Şəxsi», «İş», «Dövlət və bələdiyyə», «Rəqəmsal möhür» kimi növləri var. «Autentifikasiya» sertifikatı ərizəçinin adına elektron formada hazırlanır, onun sistemə daxil olmasını təmin edir, lakin çap olunmur. Ərizəçiyə «Şəxsi», «İş», «Dövlət və bələdiyyə», «Rəqəmsal möhür» tipli imza sertifikatları çap olunaraq kağız daşıyıcıda verilir. «İş» və ya «Dövlət və bələdiyyə» tipli sertifikatlar əldə etmək üçün müraciət etmiş şəxs həmin ASAN imza SİM kartı üzrə «Şəxsi» tipli sertifikat almamışdırsa, Asan Sertifikat Xidmətləri Mərkəzləri (ASXM) tərəfindən həmin şəxsə eyni zamanda «Şəxsi» tipli sertifikat da təqdim edilir. Bir ASAN imza SİM kartı üzrə yalnız bir «Şəxsi» tipli sertifikat və qeyri-məhdud sayda «İş» tipli sertifikat təqdim edilə bilər.

Bu ilin 3-cü rübü ərzində ASAN imza sertifikatlarının sayı 49.531 olmuşdur. Onlardan 25.551-i «Şəxsi», 22.825-i «İş», 1155-i isə «Dövlət və bələdiyyə» tipli sertifikatlar təşkil etmişdir. Ötən ilin müvafiq dövründə isə verilən ASAN imza sertifikatlarının sayı 33.734 olmuşdu. Bu rəqəmlərin müqayisəsi onu göstərir ki, 2016-cı ilin 3-cü rübündə verilən ASAN imza sertifikatlarının sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 46,8% çoxdur.

**A.NƏBİYEVA**

# Elektron xidmətlər üzrə inzibati reqlamentlərdə dəyişiklik edilib

Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə Vergilər Nazirliyinin Kollegiyası tərəfindən vergi inzibatçılığının təkmilləşdirilməsi üçün bir sıra normativ hüquqi aktlarla yanaşı, fiziki və hüquqi şəxslərin fəaliyyətinin onlayn dayandırılması və onlayn bərpası elektron xidmətləri üzrə inzibati reqlamentlər yeni redaksiyada təsdiq edilib.

**Hüquqi şəxsin fəaliyyətinin onlayn bərpası**

Bu xidmət - fəaliyyətini dayandırmış hüquqi şəxs olan vergi ödəyicilərinin Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı və ya Çağrı Mərkəzi vasitəsilə fəaliyyətinin bərpasını əhatə edir. İnternet Vergi İdarəsi Portalı vasitəsilə göstərilən xidmət tam, Çağrı Mərkəzi vasitəsilə göstərilən xidmət qismən avtomatlaşdırılmışdır.

Elektron xidmət İnternet Vergi İdarəsi Portalı vasitəsilə həyata keçirildikdə icra müddəti sorğunun informasiya sistemi tərəfindən emalı müddətindən asılı olur. Xidmət Çağrı Mərkəzi vasitəsilə həyata keçirildikdə isə elektron xidmətin icra müddəti tələb olunan məlumatların istifadəçinin səlahiyyətli nümayəndəsi tərəfindən təqdim edilməsindən, icraçının həmin məlumatları sistemə daxil etməsindən, istifadəçinin səlahiyyətli nümayəndəsinin gücləndirilmiş elektron imza vasitəsilə əməliyyatları təsdiqləməsindən və əməliyyatların informasiya sistemi tərəfindən emalı müddətindən asılı olaraq, 5-7 dəqiqə təşkil edir. Xidmətdən vergi ödəyicisinin eyniləşdirmə nömrəsini almış və istifadəçi kodu, parol, şifrə və ya gücləndirilmiş elektron imza əldə etmiş və öz müraciətinə əsasən fəaliyyəti müvəqqəti dayandırılmış hüquqi şəxslər istifadə edə bilərlər. Elektron xidmətin göstərilməsi nəticəsində hüquqi şəxsin fəaliyyətinin müvəqqəti dayandırılması barədə müraciət öz qüvvəsini itirir və onun fəaliyyəti bərpa olunur.

***Xidmətin İnternet Vergi İdarəsi Portalı vasitəsilə göstərilməsi***

Xidmətdən istifadə etmək üçün istifadəçinin səlahiyyətli nümayəndəsi Vergilər Nazirliyi tərəfindən verilmiş istifadəçi kodu, parol, şirfə və ya gücləndirilmiş elektron imza vasitəsi ilə İnternet Vergi İdarəsi Portalının «Onlayn kargüzarlıq və E-VHF» bölməsinə daxil olaraq «Yeni müraciət» düyməsini sıxmalıdır. Burada «Kimə» siyahısından «Vergilər Nazirliyi», «Müraciətin növü» siyahısından «Ərizə», «Sənədin növü» siyahısından «Hüquqi şəxsin fəaliyyətinin bərpası»nı seçməli və «Qəbul» düyməsi sıxılmalıdır. Daha sonra açılan ekranda ərizə üzrə tələb olunan məlumatlar daxil edilməlidir. Daxil edilmiş məlumatların yoxlanılması üçün təsdiqləmə ekranı gəlir. İstifadəçinin səlahiyyətli nümayəndəsi məlumatların doğruluğuna əmin olduqda «Qəbul», əks halda isə «İmtina» düyməsini sıxır. Ərizənin doğruluğu təsdiqləndikdən sonra hüquqi şəxsin fəaliyyətinin müvəqqəti dayandırılması barədə müraciət öz qüvvəsini itirir, onun fəaliyyəti bərpa olunur və ekrana fəaliyyətin bərpası haqqında «Bildiriş» gəlir.

Fəaliyyətin bərpası barədə daha əvvəl təqdim edilmiş ərizə üzrə məlumatlar Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminə daxil edilərək yenidən hüquqi şəxsin fəaliyyətinin bərpası ərizəsi göndərildikdə və ya hüquqi şəxsin fəaliyyəti aktiv olduqda bu xidmətdən imtina edilir.

***Xidmətin Çağrı Mərkəzi vasitəsilə həyata keçirilməsi***

Xidmətdən istifadə etmək üçün istifadəçinin səlahiyyətli nümayəndəsi Çağrı Mərkəzinə (195-1) zəng edərək, mobil telefon nömrəsini təqdim etməlidir. Daha sonra o, kimliyinin müəyyənləşdirilməsi məqsədilə mobil telefon nömrəsinə gəlmiş SMS-lə tanış olduqdan sonra gücləndirilmiş elektron imza PIN2 kodunu daxil etməlidir. Təqdim olunan məlumatlar əsasında icraçı tərəfindən «Hüquqi şəxsin fəaliyyətinin bərpası» ərizəsi doldurulacaq. Bundan sonra səlahiyyətli nümayəndənin mobil telefon nömrəsinə ərizədə qeyd olunan məlumatlar barədə SMS göndəriləcək. Nümayəndə SMS-lə tanış olduqdan sonra yoxlama kodunu təsdiqləyərək gücləndirilmiş elektron imza PIN2 kodunu daxil etməklə SMS vasitəsilə göndərilmiş ərizə məlumatlarını imzalamalıdır.

Əməliyyat başa çatdıqdan sonra istifadəçinin səlahiyyətli nümayəndəsinin mobil telefon nömrəsinə fəaliyyətin bərpası barədə SMS və «Onlayn kargüzarlıq və E-VHF» bölməsindəki elektron qutusuna ərizənin göndərilməsi üzrə əməliyyat tarixçəsi göndəriləcək.

Xidmətin göstərilməsindən bu hallarda imtina edilir:

- müraciət edən şəxsin hüquqi şəxsin səlahiyyətli nümayəndəsi olmadığı müəyyən edildikdə;
- fəaliyyətin bərpası barədə daha əvvəl təqdim edilmiş ərizə üzrə məlumatlar AVİS-ə daxil edilərək yenidən hüquqi şəxsin fəaliyyətinin bərpası ərizəsinin təqdim olunması üçün müraciət edildikdə;
- hüquqi şəxsin fəaliyyəti aktiv olduğu halda, müraciət edən şəxs ASXM tərəfindən verilən gücləndirilmiş elektron imzaya sahib olmadıqda;
- mobil telefon nömrəsi səhv bildirildikdə və ya həmin nömrə ilə bağlı nasazlıq olduqda;
- ərizədə qeyd edilməli olan məlumatlar dəqiq bildirilmədikdə;
- müraciət iş vaxtı edilmədikdə.

**Aytən NƏBİYEVA**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Milli Məclisin əmək və sosial siyasət komitəsində «Turizm haqqında» yeni qanun layihəsi müzakirə edilib.

Fransanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə «Fransada investisiya ayı» çərçivəsində investisiya imkanlarının təqdimatı keçirilib.

Noyabrın 16-da Türkiyənin İstanbul şəhərində 5-ci Türkiyə-Azərbaycan-Gürcüstan biznes forumunun keçirilməsi nəzərdə tutulur.

Cənubi Qafqazın yeganə peyk operatoru olan «Azərkosmos» ASC Misir, Afrika, Yaxın Şərq, Mərkəzi Asiya və Avropa regionunda aparıcı peyk xidmətləri təklif edən «DCS Telecom» və «Don Telecom» şirkətləri ilə əməkdaşlıq müqaviləsi imzalayıb.

ABŞ-ın tanınmış «Forbes» jurnalında «Avrasiyanın yeni qovşaqlarına diqqətli baxış: Azərbaycanın yeni Bakı Limanı» başlıqlı geniş məqalə dərc edilib.

Azərbaycan Dövlət Neft Fondu Beynəlxalq İqtisadiyyat üzrə Peterson İnstitutunun tərtib etdiyi «Suveren Fondların Şəffaflıq və Hesabatlılığı» qiymətləndirmə cədvəlində 92 xalla 60 suveren fond arasında 4-cü yerdə qərarlaşıb .

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Avropa İttifaqının TAIEX proqramı çərçivəsində fiskal sektorda hüquqi, institusional və iqtisadi mövzuda tədqiqat layihəsinə başlayıb.

Azərbaycanın Astara stansiyasından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 kilometrlik yeni dəmir yolunun qoyuluşu başa çatıb.

Azərbaycan hökuməti ilə Monako Knyazlığı arasında iqtisadi əməkdaşlıq çərçivəsində bir neçə sənəd imzalanıb.

Dünya Bankı və Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası «Kapital bazarlarının müasirləşdirilməsi» layihəsinin icrasını yekunlaşdırıb.

# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar.*

*«Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## Elektron ticarətin vergiyə cəlb edilməsi düzgün yanaşmadır



Fərid İsmayılzadə,
*«Golden Pay» şirkətinin rəhbəri*

Vergi sahəsində aparılan islahatların sırasında bir çox mühüm istiqamətlər yer alıb. Ümumi şəkildə yanaşdıqda, islahatların vergi qanunvericiliyinin təkmilləşdirilməsinə və beynəlxalq standartlara uyğunlaşdırılmasına, ölkədə investisiya mühitinin yaxşılaşdırılmasına və sahibkarlığın fəaliyyətinin stimullaşdırılmasına, vergi yükünün azaldılmasına, şəffaflığın təmin olunmasına xidmət etdiyini demək mümkündür.

Hazırda Azərbaycanda əsas müzakirə mövzularından biri elektron ticarətin stimullaşdırılması, eləcə də bu sahənin hansı yolla vergiyə cəlb olunmasının müəyyənləşdirilməsidir. Elektron ticarəti əsas etibarilə iki istiqamət üzrə təsnifləşdirmək olar:

- xarici ölkələrə məxsus məhsulların xarici saytlar, portallar vasitəsilə Azərbaycana gətirilməsi;
- elektron vasitələrin köməyi ilə bu ticarətin ölkə daxilində aparılması və yaxud respublikamızdakı malların sayt və portallardan istifadə yolu ilə xarici dövlətlərə satılması.

Prinsipcə, hər iki istiqamət müasir dövrdə ən çox istifadə olunan ticarət növüdür və bu baxımdan, e-ticarəti inkişaf etdirmək və stimullaşdırmaq zəruridir.

Lakin nəzərə alınması vacib olan məqamlara da ciddi yanaşılmalıdır. Xarici ölkələrdən Azərbaycana gətirilən mallar üzrə aparılan e-ticarət əməliyyatları ümumi ticarətdə daha geniş paya malikdir. İl ərzində milyonlarla dollar dəyərində malın xarici saytlar vasitəsilə alış-veriş edildiyini görürük. Bəs nəyə görə insanlar daha çox həmin saytlardakı məhsulların alış-verişinə üstünlük verirlər? Bunun əsas səbəbi mal çeşidlərinin çoxluğu və e-satışda təqdim edilənlərin qiymətlərinin ucuzluğudur. Etiraf etmək lazımdır ki, bu cür ticarətin qarşısını almaq çətin olsa da, elə etmək lazımdır ki, onun dövlət büdcəsinə də faydası dəysin. E-ticarət əməliyyatları zamanı hesablanan vergi həmin xarici sayt tərəfindən malın satıldığı ölkədə qalır. Bunun nəticəsidir ki, hazırda bir çox olkələr hətta sosial şəbəkələri (məsələn «google», «facebook» kimi sirkətləri) əldə etdikləri qazanclara görə vergiyə cəlb edir. Bu ticarət hazırda populyarlaşmaqla yanaşı, ümumilikdə vergitutmanın bir sahəsi hesab edilir.

İslahatlar çərçivəsində təklif edilən məsələlərdən biri Azərbaycanda inkişaf edən bu sahənin güzəştli şərtlərlə vergiyə cəlb olunmasıdır. Hesab edirəm ki, həm xaricdən gətirilən, həm də ölkəmizdə istehsal olunan mallara dünya praktikasına uyğun vergi və gömrük rüsumunun təyin edilməsi düzgün yanaşmadır. Amma bu məsələdə daxili satışların, yəni ölkənin öz hüdudları çərçivəsində həyata keçirilən e-ticarətin vergiyə cəlb olunmasına fərqli yanaşılmalıdır. Daxili ticarəti stimullaşdırmaq üçün vergi güzəştləri tətbiq edilməlidir. Burada daha bir məqam ixracyönümlü malların Azərbaycandan xarici ölkələrə satışının e-ticarət vasitəsilə təşkilidir. İxracın təşviqi baxımından bu cür e-ticarət əməliyyatlarına xüsusi vergi-gömrük güzəştləri tətbiq edilməlidir. Bu siyasət yerli sahibkarların e-ticarətə marağının artmasına, həmin sahədə e-ticarət platformasının möhkəmlənməsinə, ödənişlərin tamamilə elektronlaşmasına və şəffaflığa şərait yaradacaq.

**İnnovativ məhsul istehsalı və həmin məhsulların xarici ölkələrə satışının təşkili vacibdir**

Vergi islahatlarının mühüm istiqamətlərindən biri də nağdsız ödənişlərdir. Dövlət bu sahənin stimullaşdırılması, geniş tətbiqi üçün müxtəlif təşviqedici addımların atılmasına çalışır. Hazırkı bazarı nəzərdən keçirsək, nağdsız ödənişləri də iki qrupa ayırmaq olar: internet vasitəsilə aparılan və POS-terminalların köməyi ilə həyata keçirilən əməliyyatlar. Məncə, hər iki sahəyə də vergi güzəştləri tətbiq olunmalıdır. Çünki bu addım sahibkarları güzəştlər sayəsində nağdsız ödənişlərdən daha çox istifadəyə həvəsləndirəcək, nəticədə ödəyiciləri təşviq etməyə ehtiyac qalmayacaq, sahibkarlar özləri bu sistemi çox rahatlıqla qurub genişləndirəcəklər. Onlar müxtəlif stimullaşdırıcı aksiyalar, təşviqat və marketinq işi vasitəsilə nağdsız ödənişlərin cəlbedici olmasına çalışacaqlar. Burada bankların da üzərinə müəyyən vəzifələr düşür. Onlar sahibkarlara bir sıra məsələlərdə kömək etməli, texniki dəstək göstərməlidirlər.

Hesab edirəm ki, «startup» fondlarının inkişaf etdirilməsi baxımından da bu sahənin vergi güzəştləri ilə əhatə olunması müzakirə edilə bilər. Ölkəmizdə kənd təsərrüfatı, turizm, hotelçilik, İKT sənayesinin inkişafı ilə bağlı əlavə tədbirlər görülməkdədir. Onların sırasında ən yaxşı və perspektivli, xaricdən ölkəmizə böyük həcmdə valyuta gətirə biləcək sahə İKT sektorudur. Bu sahənin inkişafı ilə bağlı iki istiqaməti önə çəkmək istərdim:

- dünya praktikasında şirkətlərin istifadə etdiyi «outsource» sisteminin tətbiqi;
- innovasiyalardan geniş istifadə edilməsi.

«Outsource» sistemi indiki mərhələdə bizim üçün məqsədəuyğun deyil, ölkəmizdə bu sahə üzrə kifayət qədər proqramçı, mühəndis kadrları olmadığı üçün əsas istiqamət innovasiyalar olmalıdır. Bunun üçün elmi kəşflərin edilməsi, innovativ məhsul istehsalı və həmin məhsulların xarici ölkələrə satışının təşkili vacibdir. Azərbaycanda bu layihənin tətbiqi məqsədilə konkret ünvanlar seçilməlidir. Məsələn, hansısa şəhəri «smart city» elan edib, orada smart texnologiyalar istehsal etmək mümkündür, sonra isə bu məhsulları xarici ölkələrə satmaq olar. Bununla «startup» fondlara geniş ehtiyac yaranacaq. Həmin fondların fəaliyyətinin artırılması üçün xaricə ixrac olunan mal və xidmətlərə vergi güzəştlərinin tətbiq edilməsi faydalı ola bilər.

## Nağdsız ödənişləri stimullaşdırmağa ehtiyac var



Vüsal Süleymanov,
*«Fintech» üzrə mütəxəssis*

Vergi sahəsində aparılan islahatların əsas istiqamətlərindən biri nağdsız ödənişlərin çeşid və həcminin genişləndirilməsi ilə bağlıdır. Nağdsız ödənişlər vergidən yayınma hallarının qarşısını almaqla vergitutma bazasının genişləndirilməsində mühüm rol oynayır. Hazırda ölkəmizdə nağdsız ödəmələr üçün geniş infrastruktur yaradılıb, müxtəlif şirkətlərin ödəmə sistemləri fəaliyyət göstərir. Ödəniş şirkətlərinin onlayn ödəmələr sisteminə inteqrasiya olunması dolayısı ilə nağdsız ödənişlərə öz müsbət təsirini göstərir.

Azərbaycanda fəaliyyət göstərən ödəniş terminallarında bir sıra banklara aid ödənişlərin həyata keçirilməsi (kredit ödənişi, əmanət və cari hesabın artımı, həmçinin bank kartlarına onlayn rejimdə mədaxil), bank olmayan kredit təşkilatlarının ödəmələri, mobil operatorlar, kommunal, rabitə ödənişləri, kabel TV, internet provayderlər, həmçinin onlayn oyunlar, sosial şəbəkələr və digər xidmətlər mövcuddur.

Beynəlxalq təcrübədə ödəniş şirkətlərinin dövlət və özəl qurumların dövlət büdcəsinə aid öhdəliklərinin yerinə yetirilməsi (ödəmələr), müxtəlif razılıq sənədləri və əməliyyatlarla bağlı rüsumların, vergi və digər ödənişlərin həyata keçirilməsində rolu müsbət nəticələr verir. Hazırda ölkəmizdə dövlət qurumlarının ödədikləri bir çox rüsumların «ASAN ödəniş» terminalları vasitəsilə ödənilməsinə imkan yaradılıb. «Dövlət rüsumu haqqında» Qanuna əsasən, bütün dövlət qurumları və xidmət müəssisələri, icra orqanları tərəfindən müəyyən olunmuş rüsumların, ödənişlərin, vergilərin, eləcə də sahibkarlıq fəaliyyəti ilə bağlı lisenziyaların alınmasına görə ödənilməli olan vəsaitlər nağdsız qaydada həyata keçirilir. Təcrübə göstərir ki, ödəniş terminalları vasitəsilə ödəmə ən rahat və etibarlı vasitədir. Ona görə də istərdik ki, bu cür ödənişlərin digər ödəniş şirkətləri vasitəsilə aparılmasına müvafiq icazələr verilsin. Bu zaman ölkədaxili pul köçürmələri üçün vətəndaşların banka getməsinə ehtiyac qalmır. Ödəniş terminallarının «MONEX» sisteminə qoşulması banka yaxınlaşmadan günün 24 saatı ərzində (online) bu terminallardan Azərbaycanın istənilən bölgəsinə pul vəsaiti göndərilməsinə imkan verir. İstərdik ki, ödəniş şirkətlərinin MDB və Avropa ölkələri ilə valyuta transferləri və pul köçürmələri sisteminə qoşulmasına şərait yaradılsın. Artıq şirkətlərin bu sahədə xeyli təcrübəsi var, ölkə daxilində bank ödəmələri, hesaba köçürmə və s. bu tipli ödəmələrin çeşidinin artırılması regionlarda yaşayan insanların rahatlığının təmin olunması baxımından da əhəmiyyətlidir.

Ölkədə nağd ödəmələrdən nağdsız ödəmələrə keçidin genişlənməsi, əhalinin bu sahədə ödəmə mədəniyyətinin formalaşması ödəniş şirkətlərinin də məsuliyyətini artırır. Onlar öz infrastrukturlarını gücləndirmək, operativliyi təmin etmək, meydana çıxan problemləri vaxtında və yerindəcə aradan qaldırmaq üçün texniki-servis xidmətlərini müasirləşdirməli, eyni zamanda, terminallara bir sıra yeni ödəniş vasitələri və şirkətlərin əlavə olunması üçün texniki imkanlarını artırmalıdır. Ödəniş terminalları üzrə müştəri xidmətini artırmaq məqsədilə yaradılan «Qaynar xətt» vasitəsilə müştərilərin gün ərzində istənilən təklif, şikayət və ya texniki nasazlıq barədə müraciətlərini anındaca həll etməlidirlər.

**Nağd ödəmələrdən nağdsız ödəmələrə keçidin genişlənməsi ödəniş şirkətlərinin də məsuliyyətini artırır**

Nağdsız ödənişlərə tətbiq olunan güzəştlərin dolayısı ilə ödəniş terminallarına da şamil edilməsi mümkündür. Bu, əslində, provayder şirkət ilə xidmətləri təqdim olunan firma və şirkətlər, operatorlar arasında həll olunmalıdır. Komisyon haqları və digər tutulan xərcləri iki dəfəyədək azaltmaq olar.

Azərbaycanda nağdsız ödənişlərin həcminin artırılması üçün e-ödəniş sistemlərinin tənzimlənməsinə ehtiyac var. Bundan başqa, müxtəlif xidmətlər üzrə tarifləri də azaltmaq məqsəduyğundur. Nağdsız əməliyyatların stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması ilə bağlı bəzi səmərələşdirici addımların atılması vacibdir. Tezliklə «Ödəniş xidmətləri haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi də işin xeyrinə olardı.

*Hazırladı:* **E. CƏFƏRLİ**

# Səyyar vergi yoxlaması

## Yoxlanılan sahibkarların və yoxlayıcı orqanların hüquq və vəzifələrini bilməsi şəffaflığın təmin olunmasına xidmət edir

Səyyar vergi yoxlaması - vergi orqanının vergilərin düzgün hesablanmasına, tam və vaxtında ödənilməsinə nəzarət və vergi qanunvericiliyinə dəqiq riayət etmək vəzifəsinə xidmət edən, vergi orqanı tərəfindən vergi ödəyicilərinin uçot sənədləri, vergi bəyannamələri, vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri, vergi ödəyicisinin fəaliyyəti haqqında vergi orqanında olan və digər bəlli mənbələrdən alınan məlumatlar, habelə vergi ödəyicisinin elektron daşıyıcılarındakı məlumatları əsasında həyata keçirilən yoxlama növüdür.

«Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarlığın maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanununa görə, bütün növ yoxlama tədbirlərində sahibkarlıq fəaliyyətini həyata keçirən şəxslərin hüquqlarının qorunması məqsədilə yoxlayıcı orqanların qarşısında müəyyən tələblər qoyulmuşdur. Tələblərin mahiyyəti yoxlanılan sahibkarların və yoxlayıcı orqanların hüquq və vəzifələrini, yoxlama zamanı tətbiq olunan prosedurların həyata keçirilməsi qaydalarını konkretləşdirməklə yoxlama prosesinin şəffaflığının təmin edilməsindən ibarətdir. Səyyar vergi yoxlaması zamanı da vergi əməkdaşlarının və vergi ödəyicilərinin qanunvericiliklə bir çox hüquqları müəyyən olunmuşdur.

### *Vergi ödəyicilərinin hüquqları*

Vergi qanunvericiliyində səyyar vergi yoxlaması zamanı vergi ödəyicilərinin bir çox hüquqları təsbit edilmişdir ki, onlar bu hüquqlardan maksimum şəkildə yararlana bilərlər. Vergi ödəyiciləri yoxlama ilə bağlı tərtib edilən aktların (protokolların) və vergi orqanlarının qərarlarının surətini tələb etmək, vergilər və onların ödənilməsi qaydasını və şərtlərini tənzimləyən normativ-hüquqi aktları, vergi ödəyicilərinin hüquq və vəzifələri, vergi orqanlarının və onların vəzifəli şəxslərinin səlahiyyətləri haqqında əvəzsiz olaraq yazılı məlumat almaq imkanına malikdirlər. Həmçinin, vergi orqanlarından və onların vəzifəli şəxslərindən vergi ödəyicisinə münasibətdə vergilər haqqında qanunvericiliyə riayət olunmasını tələb etmək, Vergi Məcəlləsinə və digər vergi normativ-hüquqi aktlarına uyğun olmayan aktların (qərarların) tələblərini yerinə yetirməmək, müəyyən edilmiş qaydada vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək sahibkarların hüquqlarıdır.

İş adamları qanunvericiliklə müəyyən edilmiş qaydada kommersiya (vergi) sirrinin qorunmasını, vergi orqanlarının və ya onların vəzifəli şəxslərinin qeyri-qanuni aktları (qərarları) və hərəkətləri (hərəkətsizliyi) nəticəsində dəymiş zərərin tam ödənilməsini qanunvericiliklə müəyyən edilmiş qaydada tələb edə bilərlər. Vergi ödəyicisi vergi yoxlamalarının aktları və digər materialları ilə tanış olmaq, vergi orqanlarına və onların vəzifəli şəxslərinə vergilərin hesablanması və ödənilməsi, habelə keçirilən vergi yoxlamalarının aktları üzrə öz rəyini bildirmək və qanunvericiliklə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək imkanına malikdir.

### *Şikayət etmək hüququ*

Səyyar vergi yoxlaması zamanı çıxarılan qərarla razılaşmayan vergi ödəyicisi 3 ay müddətində yuxarı vergi orqanına (yuxarı vəzifəli şəxsə) və (və ya) məhkəməyə şikayət edə bilər. Şikayətə yuxarı vergi orqanı və ya onun vəzifəli şəxsi tərəfindən «İnzibati icraat haqqında» Qanunun tələblərinə əsasən baxılır, müvafiq qərar qəbul edilərək şikayətçiyə təqdim edilir. Şikayətə baxılan müddət ərzində maliyyə sanksiyasının ödənilməməsi istisna olmaqla, şikayət edilən qərarın (aktın) və ya hərəkətin icrası dayandırılmır.

Şikayət edilən qərar (akt) və ya hərəkət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmadıqda şikayətə baxan vergi orqanı (vəzifəli şəxsi) onun icrasını tam və ya qismən dayandıra bilər. Vergi ödəyicisi şikayətin nəticələrinə görə qəbul olunmuş qərardan razı qalmadıqda, məsələyə yenidən baxılması məqsədilə Vergilər Nazirliyində yaradılmış mübahisələrin məhkəmədənkənar həlli vasitəsi olan Apelyasiya Şurasına da müraciət etmək hüququna malikdir.

Vergi ödəyicisi səyyar vergi yoxlamasının nəticələrindən və ya yoxlama ilə əlaqədar vergi orqanına təqdim olunan şikayətə baxılmanın nəticələrindən razı qalmadıqda, vergi yoxlamasının keçirilməsi barədə tələblə çıxış edə bilər. Bu zaman vergi orqanı əvvəlki yoxlamanı keçirən yoxlayıcılar tərəfindən aparılmamaq şərti ilə növbədənkənar vergi yoxlaması barədə qərar qəbul edilməsi mümkündür.

### *Vergi əməkdaşlarının hüquqları*

Vergi Məcəlləsi ilə səyyar vergi yoxlaması zamanı vergi əməkdaşının da müəyyən hüquqları təsbit olunmuşdur. Vergi əməkdaşı bu növ yoxlamanı həyata keçirən zaman vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda elektron daşıyıcılarındakı məlumatların verilməsini, həmin məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılmasını tələb edə bilər. Həmçinin, yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onların vəzifəli şəxslərindən izahatlar, arayışlar, şifahi və yazılı məlumatlar almaq, sahibkarın biznes fəaliyyətini xarakterizə edən informasiyalar əldə olunması üçün vergi auditinin tədqiqini təşkil etmək, sənədləri və nümunə kimi əşyaları götürmək, əmlakın və pul vəsaitlərinin, xammal və sərvətlərin inventarizasiyasını aparmaq vergi əməkdaşının vəzifə borclarına daxildir. Vergilərin hesablanması zamanı Vergi Məcəlləsinin 14-cü maddəsinə uyğun qaydada bazar qiymətlərini və mənbəyi bəlli digər məlumatları nəzərə almaq, əlaqəli məlumatlara əsasən vergitutma obyektlərini müəyyən etmək, vergi ödəyicisinin xərcləri, o cümlədən fərdi istehlakı üçün çəkilən xərcləri barədə rəsmi informasiyalar toplamaq vergi əməkdaşlarının səlahiyyətlərinə daxildir.

Vergi əməkdaşının maliyyə sanksiyaları və inzibati cərimələr tətbiq etmək və ya cinayət xarakterli materialların aidiyyəti üzrə göndərilməsi üçün təkliflər vermək, mütəxəssisləri, ekspertləri, tərcüməçiləri və müşahidəçiləri yoxlamaya dəvət etmək ixtiyarı vardır. Vergi qanunvericiliyinin pozulması hallarının aradan qaldırılmasını vergi ödəyicilərindən tələb etmək, zəruri məlumatların əldə edilməsi məqsədilə aidiyyəti üzrə sorğular vermək və s. kimi hüquqlar da vergi əməkdaşlarına məxsusdur.

# İllik maliyyə hesabatlarının hazırlanması

## İllik maliyyə hesabatları kredit təşkilatları və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, kommersiya təşkilatlarına şamil edilir

Mühasibat balansı, mənfəət və zərər, kapitalda dəyişikliklər, pul vəsaitlərinin hərəkəti haqqında hesabat, uçot siyasəti və izahlı qeydlərdən ibarət olan illik maliyyə hesabatlarını və birləşdirilmiş maliyyə hesabatlarını kommersiya təşkilatları hesabat dövrü başa çatdıqdan sonra, müvafiq olaraq, sonrakı ilin aprel ayının 30-dan və iyun ayının 30-dan gec olmayaraq təqdim etməlidirlər.

Kommersiya təşkilatı illik maliyyə hesabatlarını tabe olduğu yuxarı təşkilata və ya birləşdirilmiş maliyyə hesabatlarını tərtib edən əsas cəmiyyətə, bunlar olmadıqda isə təsisçiyə (təsisçilərə) təqdim edir. Kommersiya təşkilatının illik maliyyə hesabatlarının və birləşdirilmiş maliyyə hesabatlarının hazırlanması, təqdim olunması, uçot sənədlərinin saxlanılması ilə əlaqədar qanunvericiliyin pozulması halları aşkar edildikdə, onların tabe olduqları yuxarı təşkilat və təsisçi (təsisçilər) tərəfindən bu təşkilat üzrə qanunvericiliyin tələblərinə əsasən müvafiq tədbirlərin görülməsi barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə müraciət edilir.

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının və Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının ölkə ərazisində tətbiqi ilə bağlı nəzarəti həyata keçirmək məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təbii inhisar fəaliyyəti subyektlərinə və dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaitləri ayrılan kommersiya təşkilatlarına illik maliyyə hesabatlarının və birləşdirilmiş maliyyə hesabatlarının təqdim edilməsi barədə müraciət edilir.

Vergilər Nazirliyi tərəfindən sahibkarlıq subyektlərinə qısa mesajla «Azərbaycan Respublikası qanunvericiliyinə əsasən illik maliyyə hesabatları müstəqil auditor rəyi ilə təsdiq edilməlidir» bildirişi göndərilir. İqtisadçı ekspert Əkrəm Həsənovun sözlərinə görə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 91.4-cü bəndinə əsasən, məhdud məsuliyyətli cəmiyyətlər üçün illik maliyyə hesabatlarının düzgünlüyünün yoxlanılmasına ildə bir dəfə müstəqil auditor cəlb edilməsi tələb olunur. Bundan başqa, təsisçilər öz hesablarına əlavə auditor yoxlaması da tələb edər bilər: «Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 464-cü maddəsinə əsasən, «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş hallarda həyata keçirilməli olan məcburi auditdən yayınmağa görə vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir. Göstərilənlər ilə bərabər qanunvericilikdə İXM-in həmin maddəsi üzrə cərimənin hansı qurum tərəfindən tətbiq ediləcəyi müəyyən edilməmişdir. Yəni cərimə var, lakin tətbiq olunmalı qurum müəyyən edilməyib».

İllik maliyyə hesabatlarının verilməsi qaydasına və formasına gəldikdə isə, ekspertin rəyinə görə, kiçik sahibkarlar bu hesabatın verilməsindən azaddırlar. Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda və qaydada auditor rəyi ilə birlikdə Maliyyə Nazirliyinə təqdim edirlər. Bununla da qaydalar hansı qurumların illik maliyyə hesabatı verməsini, həmçinin hansı qurumların maliyyə hesabatlarına auditor rəyini əlavə etməli olduğunu göstərir.

«Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 5.2-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Vergilər Nazirliyi ildə bir dəfə mart ayının 31-dək maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə dərc etməli olan kommersiya təşkilatlarının (investisiya fondları və onların idarəçiləri, sığorta şirkətləri istisna olmaqla) siyahısını Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, investisiya fondlarının və onların idarəçilərinin, sığorta şirkətlərinin siyahısını isə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasına təqdim edir.

**Fəxriyyə İKRAMQIZI**

# İKT xidmətlərinin modernləşdirilməsi ilə bağlı beynəlxalq layihə

Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının (BMTİP) Azərbaycan Nümayəndəliyi ilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin «Azərbaycan Respublikasında İKT infrastrukturu və xidmətlərinin modernləşdirilməsi» layihəsinin növbəti mərhələsinin birgə icrası barədə razılıq əldə edilib. Nümayəndəlikdən bildirilib ki, layihənin məqsədi İKT-nin tətbiqi dairəsini genişləndirmək, sosial-iqtisadi təsirlərini artırmaq, regional səviyyədə «rəqəmli fərq»i aradan qaldırmaq üçün çoxtərəfli dialoq yaratmaqdır. Layihə çərçivəsində beynəlxalq təşkilatlarla BMT İqtisadi və Sosial məsələlər üzrə Departamenti (UNDESA), BMT Avropa üçün İqtisadi Komissiyası (UNECE), BMT Dövlət Administrasiya Şəbəkəsi (UNPAN), BMT Asiya və Sakit Okean Regionu üzrə Komissiyası (UNESCAP), eləcə də Azərbaycanda yerli hakimiyyət orqanları, vətəndaş cəmiyyəti, biznes dairələri ilə əməkdaşlıq ediləcək.

Layihəyə uyğun olaraq, «e-iştirak» üzrə milli bacarıqların artırılması, açıq hökumət məlumatları üzrə maarifləndirmə, «Trans-Avrasiya super informasiya magistralı» layihəsi istiqamətində fəaliyyətin həyata keçirilməsi, biliklərə əsaslanan və innovativ iqtisadiyyatın inkişafı üçün milli konsepsiyanın işlənilməsi, eləcə də «elektron hökumət» infrastrukturunun inkişafı və e-xidmətlərin təşviqi üzrə birgə işlər görülməsi nəzərdə tutulub.

Qeyd edək ki, BMTİP Azərbaycan hökumətinin İKT sahəsində əməkdaşlıq üzrə uzunmüddətli tərəfdaşı kimi tanınır. Bu illər ərzində müxtəlif dövlət qurumları ilə çoxsaylı layihələr həyata keçirilib və hazırda da davam etdirilir. Qurum indiyədək Azərbaycanda milli İKT strategiyasının hazırlanması, «AzDataCom» şəbəkəsinin qurulması, Data Mərkəzin yaradılması, həmçinin Dövlət Sosial Müdafiə Fondu, Ədliyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və digər dövlət orqanlarında işgüzar proseslərin avtomatlaşdırılması sahəsində layihələrin həyata keçirilməsində əməkdaşlıq edib.


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin noyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin noyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**


## vergi təqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | 1 | 2 | 3 | 4 | 5 | **6** |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | **13** |
| 14 | **15** | 16 | 17 | 18 | 19 | **20** |
| **21** | 22 | 23 | 24 | 25 | 26 | **27** |
| 28 | 29 | 30 | | | | |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

15 noyabr - «5», «(5)» və «6».

21 noyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «(9-1)», «10.1» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.
İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

# Rusiya vergidən yayınma hallarına qarşı mübarizəni gücləndirir

Federal Vergi Xidməti (FVX) banklar üzərindən icra edilən transsərhəd sövdələşmələr vasitəsilə vergidən yayınma sxemlərinin kökünü kəsməkdə qərarlıdır. Bu il ərzində FVX ölkənin nəhəng maliyyə qurumlarının - MDM Bank, «İnteza»bank, Avropa Kredit Bankı, Qazprombank və Xantı-Mansı «Otkrıtiye» Bankının iştirakı ilə ən azı beş məhkəmə prosesində qalib gəlmişdir.

«Kommersant» qəzetinin yazdığına görə, məhkəmənin araşdırdığı halların hamısında banklar gəlirləri xarici şirkətlərə ödəməklə transsərhəd sövdələşmələr aparmışdır. Həmin sövdələşmələr zamanı banklar öz xarici tərəfdaşlarının mənsub olduqları ölkələrlə Rusiya arasında imzalanmış ikiqat vergitutmanın qarşısının alınması barədə sazişlərdən öz məqsədlərinə uyğun şəkildə istifadə edərək, gəlir vergisini aşağı dərəcə ilə tutmuşlar. Vergi orqanı əməkdaşları beş halın hamısında tərəfdaşların sövdələşmənin benefisiarı deyil, sadəcə vasitəçisi olduqlarını müəyyənləşdirmiş və məhkəməni buna inandıra bilmişlər. Xarici şirkətlər vegitutmanın optimallaşdırılması məqsədilə həyata keçirilmiş transaksiyaların iştirakçıları olmuşlar. Mübahisələrə birinci instansiyada, apelyasiya və kassasiya mərhələlərində baxılmışdır.

# Malayziyada daha çox gəlir əldə edən şirkətlərə güzəşt olunacaq

2017-ci ilin büdcəsində iri və kiçik şirkətərdən tutulan korporativ vergilərə yenidən baxmaq nəzərdə tutulmuşdur. Əvvəlki ilə nisbətən illik gəlirlərini 5% artıran şirkətlər korporativ vergini bir faiz aşağı - 23% dərəcə ilə ödəmək hüququ qazanacaqlar. Şirkətin gəlirlərinin artımından asılı olaraq, bu güzəşt 4%-ə qədər artırıla bilər.

Bundan əlavə, il ərzində qazancı 120 min dollara qədər olan kiçik təsərrüfat subyektləri üçün də korporativ verginin dərəcəsi 1% aşağı salınıb: həmin şirkətlər gələn ildən korporativ vergini 18% dərəcə üzrə ödəyəcəklər. Qazancları bu həddən artıq olan kiçik şirkətlər isə, əvvəlki kimi, vergini 24% dərəcə ilə ödəyəcəklər.

2017-ci ilin büdcəsində ayrı-ayrı sahələr üçün də müəyyən güzəştlər nəzərdə tutulmuşdur. Məsələn, mehmanxana biznesinin «Pioneer Status»a malik operatorları gəlirlərindən 70%-lik vergi güzəştlərindən yararlana biləcəklər.

# BVF Yaxın Şərq və Şimali Afrika ölkələrini vergi islahatları aparmağa çağırır

Beynəlxalq Valyuta Fondunun (BVF) Yaxın Şərq və Şimali Afrika ölkələri ilə bağlı yeni hesabatında göstərilmişdir ki, iqtisadi artım tempinin aşağı olması və neftin qiymətinin ucuzlaşması bu ölkələri vergi bazasını genişləndirməyə, o cümlədən ƏDV tutmağa sövq etməlidir.

Hesabatda son aylarda əldə olunmuş mühüm irəliləyişlər, xüsusilə də vergi islahatlarının aparılmasında və yeni gəlir mənbələrinin axtarılmasında göstərilən səylər xüsusi qeyd olunmuşdur. Bundan əlavə, Körfəz ölkələri ilə əməkdaşlıq Şurası əlavə dəyər vergisinin tətbiqini planlaşdırır. «Neft ixracatçıları büdcə gəlirlərinin azalması və xərclərin ixtisar edilməsi şəraitində çətin vəzifələrlə üzləşməli olurlar, - BVF-nin regional direktoru Məsud Əhməd demişdir. - Ona görə də hazırda qarşıda duran əsas vəzifə vergi islahatlarını həyata keçirmək, region ölkələrində iqtisadi artımın dəstəklənməsi üçün uyğun olan alternativ gəlir mənbələrini axtarmaqdır».



# Ukrayna vergilərə nəzarət sahəsində geridədir

Mərkəzi, Şərqi və Cənub-Şərqi Avropa ölkələrinin iqtisadi xülasəsinə görə, region ölkələri arasında Ukrayna vergi inzabatçılığının səviyyəsinə görə ən aşağı yerlərdə qərar tutmuşdur. Beynəlxalq Valyuta Fondunun rəsmi saytında yayılmış məlumatda bildirilir ki, «Vergi inzibatçılığı institutlarının nisbi gücü» adlı müqayisəli cədvəldə Ukraynanın mövqeyi 15 maddənin altısı üzrə qeyri-məqbul qiymətləndirilmişdir, o cümlədən beş maddə üzrə qiymətləndirmə üçün göstəricilər isə verilməmişdir. «Təşkilati sistemin müstəqilliyi» kateqoriyasında kollegial idarəetmə orqanının mövcud olmadığı qeyd edilmiş və buna görə də zəruri məlumatların olmaması səbəbindən fiskal orqanların müstəqilliyi qiymətləndirilməmişdir.

Xülasənin «Təşkilati struktur» bölməsində funksional struktur da aşağı qiymətləndirilmiş, bununla belə, iri vergi ödəyicilərinə xidmət sahəsində ayrıca struktur vahidinin olmasına məqbul qiymət verilmişdir.

«Strateji idarəetmə» həm risklərin idarə edilməsi, həm də normativ-hüquqi səciyyəli risklərin müəyyənləşdirilməsi bölməsi sahəsi üzrə tamamilə qeyri-məqbul hesab edilmişdir. «Şəxsi heyətin idarə edilməsi» bölməsində ixtisaslı (diplomlu) heyətin mövcud olması və kadr axıcılığı səviyyəsinin aşağı olması məqbul qiymətləndirilmişdir. Şəxsi heyətin əsas və əlavə funksiyalar arasında bölüşdürülməsi səviyyəsi isə qeyri-məqbul sayılmışdır.

«Əməliyyat funksiyaları»nın keyfiyyətinin qiymətləndirilməsində ƏDV əvəzləşdirilməsinin qiymətləndirilməsi yoxdur. Gəlirlərin təsdiqetmə və audit vasitəsilə toplanılması göstəricisinə mənfi qiymət verilmişdir, vergi öhdəliklərinin səviyyəsinin aşağı olması isə məqbul qiymətləndirilmişdir. Zəruri göstəricilərin olmadığına görə, fiskal qurumların «Onlayn xidmətlər»inin effektivliyi xülasə sənədində qiymətləndirilməmişdir.

# Polşa satışdan verginin tətbiqini təxirə salıb

Hökumət 2017-ci ilin sonuna qədər satışdan verginin tətbiqi ilə bağlı nəzərdə tutduğu planın icrasını təxirə salmağı qərara almışdır. Rəsmi açıqlamada bildirilir ki, bu addımın atılması hökumətə satışdan verginin tətbiq edilməsi üçün prosedurların təkmilləşdirilməsinə lazım olan vaxt imkanını verəcək, eləcə də Avropa Komissiyasına öz təhqiqatını başa çatdırmağa şərait yaradacaq.

Xatırladaq ki, Polşada satışdan vergi tutulması sentyabrın 1-dən qüvvəyə minmişdi, o vaxt Avropa İttifaqı bu verginin bir sıra şirkətlərə öz rəqiblərinə qarşı üstünlük qazanmasına şərait yaradıb-yaratmadığını araşdırmaq üçün təhqiqata başlamışdı. Polşa qanunçuluğuna görə, aylıq dövriyyəsi 17 milyon avro ilə 170 milyon avro arasında olan şirkətlər hər ay 0,8% dərəcəsi ilə, aylıq gəliri 170 milyon avrodan artıq olan pərakəndə satış müəssisələri isə 1,4% dərəcəsi ilə vergi ödəməli idilər.

## Xəbər lenti

**Böyük Britaniya** hökumətindən bildirilmişdir ki, əgər Avropa İttifaqı Breksitdən sonra azad ticarətlə bağlı sazişi imzalamaqdan imtina edərsə, korporativ verginin dərəcəsi 20%-dən 10%-ə endirilə bilər.

**Şri-Lanka**da noyabrın 1-dən əlavə dəyər vergisinin dərəcəsi 11%-dən 15%-ə qaldırılmışdır.

**Beynəlxalq Valyuta Fondu**nun bəyanatında bildirilir ki, təbii sərvətlərin ixracatçısı olan Afrika ölkələri subsidiyaları azaltmalı və vergiləri artırmalıdırlar.

**Avropa Komissiyası**ndan bildirilmişdir ki, transmilli şirkətlər öz vergi öhdəliklərini bütün Avropa İttifaqı ölkələri üçün vahid vergi qaydalarına əsasən əməl etməli, onlar gəlirlərini azaltmaq və vergidən yayınmaq məqsədilə müxtəlif ölkə qanunvericiliklərindən sui-istifadə etməməlidirlər.

**Fransa** parlamenti birgə istehlak ideyasına əsaslanan «ixtisaslaşmış» icarəçilərin gəlirlərindən tutulan verginin artırılması barədə qərar çıxarmışdır. Qanun layihəsi birgə istehlak platforması üzərindən icarəyə verilən mənzillərdən və nəqliyyat vasitələrindən əldə edilən böyük gəlirlərin vergiyə cəlb olunmasını nəzərdə tutur.

**Belarus Respublikası**nda gələn il yanvarın 1-dən it sahiblərindən tutulan verginin dərəcəsi dəyişdiriləcək. Bundan sonra ev heyvanları üçün tətbiq olunan vergi it sahiblərinə aid edilməyəcək.

**Macarıstan**ın iqtisadiyyat naziri bildirmişdir ki, hökumət Çexiyanın və Slovakiyanın əmək bazarı ilə rəqabətə şərait yaratmaq üçün işəgötürənlərdən tutulan vergini azaltmağa hazırdır. Qeyd edilmişdir ki, vergi yükünün azaldılması əməkhaqqının artırılması ilə uzlaşdırılmalıdır.

# Avropa Komissiyası Polşanın sorğusunu nəzərdən keçirir

Komissiyanın Avropa İttifaqı Şurasına təqdim etdiyi təklifdə Polşaya kiçik biznesə düşən inzibati yükün yüngülləşdirilməsi üçün əlavə dəyər vergisi bazasını genişləndirməyə imkan vermək nəzərdə tutulur.

2009-cu ildə Polşa Avropa İttifaqı Şurasına xırda ticarətçilər üçün ƏDV ödənişi öhdəliyinin sadələşdirilməsi və milli vergi administrasiyası üçün vergi yığımının asanlaşdırılması barədə xahişlə müraciət etmişdi. Şuranın 20 oktyabr tarixli qərarı ilə illik dövriyyəsi 30 min avro ekvivalentindən (bugünkü məzənnələrə əsasən, təxminən 32.750 dollar) az olan ƏDV-yə cəlb edilmiş şəxslər 2012-ci ilin sonuna qədər vergidən azad edilmişdilər. Bu qərarın müddəti sonradan 2015-ci ilin sonuna, indi isə 2018-ci ilin sonunadək uzadılmışdır.

Polşa Avropa İttifaqı Şurasından ƏDV-dən azad olunma həddi üçün illik dövriyyənin 30 min avrodan 40 min avroyadək artırılmasını da xahiş etmişdir.

## krossvord



**Yuxarıdan aşağı:** 1.Azərbaycan opera müğənnisi (lirik-dramatik tenor), mahir təsnif ifaçısı, musiqi folkloru tədqiqatçısı; 2.Uzaq Şərqdə çay; 3.İnad, təkid; 4.Ağ yundan və kətandan hazırlanmış qədim Roma geyimi; 5.İsveçrədə dairə; 6.Futbol və voleybolda mühafizə funksiyasını yerinə yetirən, güc və təmkin tələb edən oyunçu mövqeyi; 9.Fransanın cənub-şərqində şəhər; 13.İngiltərədə qraflıq; 15.Karbonatlar sinfinə aid süxur (mineral); 16.Məscidlərin qiblə tərəfindəki divarında namaz qılarkən pişnamazın və onun ardınca başqa namaz qılanların üzlərini çevirdikləri yer; 17.Müəyyən edilmiş ölçü vahidinin dəqiq nümunəsi; 18.Alyaska ərazisinə ekspedisiya təşkil etmiş ilk səyyahlardan hesab olunur. Gəmilərlə səfərə çıxarkən Alyaska yaxınlığında yerləşən adada vəfat edib, sonradan ada onun adı ilə adlandırılıb; 20.Hər hansı aktivin pul ilə ifadə olunmuş qiyməti; 21.Fransız təbiətşünası, naturalist, paleontologiya elminin və müasir müqayisəli anatomiyanın atası hesab olunan alim.

**Soldan sağa:** 1.Böyük Britaniyada ali hüquqşünas kateqoriyası; 5.Azərbaycanda düzənlik ərazi; 7.Çıxılması çətin, dolanbac və dolaşıq yolları olan böyük bina, tikili; 8.Birja bağlandıqdan, alqı-satqı sessiyaları qurtardıqdan sonra aparılan ticarət əməliyyatları; 10.Qadın adı; 11.Qədim yunan mifologiyası obrazlarından biri; 12.Antarktidada ən uzun çay, həmçinin mineral adı; 14.Çox qədimdən Şərq ölkələrində becərilən xoş ətirli qiymətli meyvə; 19.Monqolustanda şəhər; 21.Belçika riyaziyyatçısı, astronomu, meteoroloq və sosioloqun adı. Elmi statistikanın banisi; 22.Yuxu; 23.Kişi adı; 24.Kimyəvi element; 25.Almaniya parlamenti.



*Çox qədimdən Şərq ölkələrində becərilən xoş ətirli qiymətli meyvə. Natürmort. Klod Mone, 1867*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qranka; 2.Loqoped; 3.Tabun; 4.Sadist; 5.Ramella; 6.Yarım; 7.Balans; 13.Kron; 15.Ferrari; 16.Eşelon; 17.Beysik; 18.Pritça; 20.Valeh *(Kərimov)*; 21.Triko. **Soldan sağa:** 1.Qalatasaray; 8.Aşqabad; 9.Maral; 10.Kupon; 11.Solomon dənizi; 12.Edikt; 14.Tayfa; 19.Şevrole; 21.Tarar; 22.Lalə; 23.Aspirant; 24.Nuh; 25.Viktoriya.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 13000**

## idman

# Güləş üzrə məşqçilər korpusunda dəyişiklik edilib




Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, qurumun birinci vitse-prezidenti, Dünya Güləş Birliyi idarə heyətinin üzvü Namiq Əliyevin imzaladığı əmrə əsasən, yunan-Roma güləşi üzrə böyüklərin komandasının baş məşqçi əvəzi Akif Əliyev, böyük məşqçisi İlqar Abdulov, məşqçisi isə Nurəddin Rəcəbov olub. Gənclərin komandasında böyük məşqçi vəzifəsini Şaban Donat yerinə yetirəcək. Məşqçi vəzifəsinə Zöhrab Abbasov və Turac Hüseynli təyin olunublar. Yeniyetmələrin yığmasına isə Bəhram Mürvətov böyük məşqçilik edəcək. İslam Cəfərov və Fuad Alıyev isə məşqçi vəzifəsini yerinə yetirəcəklər. Kiçik yaşlı yeniyetmələrin böyük məşqçisi Əfsər Namazəliyev, məşqçisi isə Rasim Ağayevdir.

Böyüklərdən ibarət sərbəst güləş komandasının baş məşqçi əvəzi Firdovsi Umudov təyin olunub. Böyük məşqçi Zəlimxan Hüseynov, məşqçilər Arif Abdullayev və Sadruddin Ayqubov seçiliblər. Gənclərin böyük məşqçisi Saypulla Absaidov, məşqçisi Rövşən Hacıyev, yeniyetmələrin böyük məşqçisi Əsgərxan Novruzov, məşqçiləri isə Vahid Məmmədov və Yaşar Əliyev təyin ediliblər. Kiçik yaşlı yeniyetmələrin məşqçisi vəzifəsinə Mehman Nəcəfov və Elşad Allahverdiyev seçiliblər.

Böyüklərdən ibarət qadın güləşçilərin millisinin baş məşqçisi vəzifəsində dəyişiklik olmayıb. Komandaya yenidən Semyon Çterev rəhbərlik edəcək. Böyük məşqçi Aslan Ağayev, məşqçi isə Rövşən Umudov təyin olunub. Gənclər və yeniyetmələrin böyük məşqçisi vəzifəsi Nazim Əlicanova həvalə olunub. Ona Həsrət Məmmədyarov və İsaməddin Hüseynov kömək edəcəklər.

# Dövlət Bayrağı Günü ilə bağlı veloyürüş




Suraxanı Rayon İcra Hakimiyyəti və Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə veloyürüş təşkil edilib. Yürüşdən əvvəl iştirakçılar Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət ediblər.

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov açılış mərasimində çıxış edərək bildirib ki, üçrəngli bayrağımız xalqımızın qürur mənbəyidir. Milli bayrağımızın dövlət rəmzi kimi bərpası istiqamətində ilk israrlı, vətənpərvər cəhdlər ulu öndər Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrə təsadüf edir. Muxtar respublikanın ali orqanının 1990-cı il noyabrın 17-də keçirilmiş sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması haqqında qərar qəbul edilib. Milli bayrağın bütövlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan Respublikası Ali Soveti qarşısında vəsatət qaldırılıb və 1995-ci ildə ümummilli liderin rəhbərliyi ilə hazırlanmış Konstitusiyada üçrəngli bayraq dövlət rəmzi kimi təsbit edilib.

Çıxışlardan sonra yürüşə start verilib. Suraxanı rayonundakı Bayraq Meydanından başlayan yüzdən çox velosipedçi «Atəşgah Məbədi» Dövlət Tarix-Memarlıq Qoruğuna gəlib. Veloyürüş boyunca və finiş xəttində iştirakçıları rayon sakinləri böyük coşqu ilə alqışlayıblar.

Qeyd edək k, Dövlət Bayrağı Günü münasibətilə noyabrın 8-də paytaxtın Nəsimi rayonunda da veloyürüş keçirilib.

# Güləşçilərimiz beynəlxalq turnirdə qüvvələrini sınayacaqlar




Noyabrın 12-13-də Moskvada güləş üzrə Qitələrarası Kubok - Alrosa Kuboku beynəlxalq turniri keçiriləcək. Komanda yarışı xarakterli turnirdə 23 yaşadək idmançılar 6 çəki dərəcəsində mübarizə aparacaqlar. Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, artıq qonşu ölkəyə yollanacaq güləşçilərin siyahısı müəyyənləşib. Rusiyanın paytaxtında ümumilikdə Azərbaycan yığmasının idman şərəfini 17 güləşçi qoruyacaq.

Qadın güləşçilərin yarışında Azərbaycan, Rusiya, Türkiyə və Özbəkistan komandaları mübarizə aparacaqlar. Yığmamızın heyətində Patimat Baqomedova (48 kq), Leyla Qurbanova (53 kq), Tatyana Omelçenko (58 kq), Elmira Qəmbərova (63 kq) və Elis Manolova (69 kq) yer alıblar. Sərbəst güləş yığmamızın heyətində Mahir Əmiraslanov (57 kq), Teymur Məmmədov (65 kq), İsmayıl Abdullayev (74 kq), Murad Süleymanov (86 kq), Məhəmmədrəsul Qazıməhəmmədov (97 kq) və Alimaqomed Alixmeyev (125 kq) birincilik uğrunda mübarizə aparacaqlar. Sərbəst güləşçilərin yarışında Azərbaycan, Rusiya, İran, Türkiyə, Özbəkistan və MOİK komandaları yarışacaq. Yunan-Roma güləşi yığmasının heyətinə Mikayıl Rəhmanov (59 kq), Namaz Rüstəmov (66 kq), Mehrac Kərimov (75 kq), Arif Niftullayev (85 kq), Soslan Fanziyev (98 kq) və Oyan Nəzəriani (130 kq) daxil edilib. Yarışda Azərbaycan, Rusiya, İran, Belarus, Özbəkistan və Moskva komandaları mübarizə aparacaq.

## Messi daha bir rekorda imza atdı




Futbol azarkeşləri dünya səviyyəli ulduz futbolçu Lionel Messinin dalbadal əldə etdiyi rekordlara, bir növ, öyrəncəli olub. Bu günlərdə o, daha bir rekorda imza atmaqla, yenidən tarix yazıb. İspaniya La Liqasının 11-ci turu çərçivəsində keçirilən «Sevilya-Barselona» qarşılaşması dünyanın ən güclü futbolçusu üçün əlamətdar olub. Katalonların argentinalı hücumçusunun görüşün 43-cü dəqiqəsində vurduğu qol ulduz futbolçunun bu komandanın heyətində 500-cü qolu kimi qeydə alınıb. Argentina yığmasının və «Barsenola»nın kapitanı bu uğura 545 rəsmi oyunda 469, 47 yoldaşlıq görüşündə isə 31 qol vurmaqla nail olub.

## mozaika

texnologiya

# Əlavə reallıq sistemi təqdim edilib




«Google» şirkəti mobil qurğular üçün «Tango» adlı əlavə reallıq sistemini təqdim edib. Hələlik sistem yalnız yeni satışa çıxarılan «Lenovo Phab2 Pro» smartfonlarında işləsə də, növbəti ildə bu kimi qadjetlərin sayının artırılması nəzərdə tutulub. Əlavə reallıq, əsasən, oyunlara tətbiq olunur. Lakin «Tango»nun imkanları bununla məhdudlaşmır. Məsələn, «iStaging» proqramı müştərilərin evində mebelin necə görünəcəyini nümayiş etdirmək imkanına malikdir.

«Tango»nun potensialının bu istiqamətdə inkişaf etdirilməsi internet-mağazalarda alış-verişin daha rahat olmasına şərait yaradacaq.

Bəzi şirkətlər artıq geyimlər üçün əlavə reallıqdan istifadə edir. Banklarda isə bu texnologiyadan şöbələrin müasirləşdirilməsi məqsədilə istifadə olunması planlaşdırılır.

Qeyd edək ki, hazırda «Tango» 35 proqram vasitəsilə dəstəklənir.

9 noyabr — Dövlət bayrağı günüdür

# Dəniz kənarında bayraq yellənir

Qəzetimizin mərhum əməkdaşı, tanınmış şair, publisist və dramaturq TALEH HƏMİD milli vətənpərvərlik ruhunda yazdığı poeziya nümunələri ilə Azərbaycan ədəbiyyatına özünəməxsus töhfələr verib. «Dəniz kənarında bayraq yellənir» şeiri də öz məzmununa və ideya silqətinə görə məhz belə nümunələrdəndir. Üçrəngli, ay-ulduzlu şanlı bayrağımıza sevgi və məhəbbətlə qələmə alınmış bu şeiri xalqımızın əziz bayramlarından olan Dövlət Bayrağı Günündə dərc etməklə unudulmaz həmkarımız, gözəl insan və istedadlı söz adamı Taleh Həmidin xatirəsinə bir daha dərin ehtiramımızı bildiririk.

Dəniz kənarında bayraq yellənir,
Coşur damarımda kükrəyən qanım.
Göy, qırmızı, yaşıl - ümman sellənir,
Yaşa, ey Vətənim, Azərbaycanım!

Min ildir səninçün qanlar vermişik,
Azğın düşmənlərə gərmişik sinə.
Biz səndən ötəri canlar vermişik,
Biz Məcnun olmuşuq sənin eşqinə.

Damarımın qanı, alnımın təri,
Sən yerin işığı, göyün işığı.
Arzum, diləyimsən əzəldən bəri
Ey mənim bayrağım, günəşə şığı!

Səninlə yurduma bahar, yaz gəldi
Elə ki quş kimi qalxdın havaya.
Uğrunda can verən ruhlar dincəldi,
Min alqış deyirəm müqəddəs paya.

Nə niyyətlə gəldi gələn yağılar,
Sonuncu düşmənim ölürmü, görən?
Ey Vətən, sinəndə ölən yağılar -
«Vətən» nə deməkdi - bilirmi görən?

Riqqətə gətirir bütün dünyanı,
Cahana yayılır işığı, nuru.
Bayraq - şəhidlərin tökülən qanı,
Bayraq - nəsillərin sınmaz qüruru!

Dəniz kənarında bayraq yellənir,
O mənim eşqimin məbədi olsun.
Göy, qırmızı, yaşıl - ümman sellənir,
Deyirəm, ey Tanrım, əbədi olsun!

cəmiyyət

# Şəxs adlarının ensiklopedik lüğəti




Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Aydın Abi Aydının tərtib etdiyi iki cildlik «Şəxs adlarının ensiklopedik lüğəti» çapdan çıxıb. Lüğətdə əsasən türk dilində və azərbaycanca olan şəxs adları verilib. Yeri gəldikdə ərəb və fars adları da təqdim olunur və izahları verilir. Daha öncə də şəxs adları ilə bağlı nəşrlər hazırlamış müəllif ilk dəfə belə əhatəli və geniş lüğət təqdim edir. Müqəddimədə türk şəxs adlarının yaranma tarixinin bir neçə mərhələsi göstərilir. Müəllif müxtəlif türk xalqlarına başqa dillərin təsirindən söz açır, türk şəxs adlarının yayıldığı əraziləri qeyd edir, adların insanlara qoyulması şəraiti və səbəblərindən bəhs edir.

Lüğətdə adların mənaları açıqlanır. Sözlükdə Anadolu, Orta Asiya və başqa türklərin adları bəzən səslındiyi kimi də verilir. O adlar ki türklərin əksəriyyətində işlənir, müəllif onları, adətən, Azərbaycan türkcəsində göstərməyə üstünlük verir.

sağlam həyat tərzi

# Tütünə qarşı mübarizə gücləndirilir

Tütün məhsullarının reklamı üçün internetdən istifadə Dünya Səhiyyə Təşkilatı (DST) ekspertlərinin tütünlə mübarizə zamanı üzləşdikləri əsas problemlərdən biridir. BMT-nin saytının yaydığı xəbərə görə, tütünə nəzarət üzrə beynəlxalq görüş ərəfəsində DST-nin mütəxəssisləri ölkələri reklamların tənzimlənməsi sahəsində əməkdaşlığı möhkəmləndirməyə çağırır. Bu problem DST-nin tütünə nəzarət üzrə Çərçivə Konvensiyası tərəflərinin gələn həftə Nyu-Dehlidə keçiriləcək görüşündə müzakirə predmeti olacaq. «Bu gün siz qəhrəmanları siqaret çəkən filmləri internetdən yükləyə bilərsiniz. Normal sosial davranış kimi belə səhnələrin nümayişi tütün məhsullarının reklam bazarının genişləndirilməsi üçün zəmin yaradır», - deyə Konvensiyanın katibliyindən həkim Vera Silva bəyan edib. Həkimin fikrincə, tütün reklamının sosial şəbəkələrdə daha da genişləndirilməsi gənclərə yeni bazarlar tapmağa imkan verir.



Ekspertlər hesab edirlər ki, tütün istehlakını azaltmaq üçün sosial şəbəkələrdə reklam tənzimlənməsi probleminə qlobal yanaşma planı hazırlamaq lazımdır. Bununla Nyu-Dehlidə DST-nin Çərçivə Konvensiyasına üzv olan 180 dövlətin nümayəndələri məşğul olacaqlar. Onlar, həmçinin, qəlyanların və ətirli tütün məhsullarının azaldılması tədbirlərini də nəzərdən keçirəcəklər.





ELAN

**«Vergilər» qəzetinə**
**2017-ci il üçün**
**abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **31 manat 20 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22


Müdriklər deyib ki...



*«Dünyanı dəyişdirmək üçün istifadə edə biləcəyiniz ən güclü silah təhsildir».*
*Nelson Mandela (1918-2013)*